RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 141 (10161) 8 avqust 2026-cı il ŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



# Tarixi Zəfərdən mütləq sülhə



## Vaşinqton Zirvəsində regional sabitliyin, əməkdaşlığın və tərəqqinin təməli qoyuldu

Azərbaycanın liderliyi ilə irəlilədilən normallaşma gündəliyi ötən il 8 avqust Vaşinqton sammitində öz məntiqi nəticəsinə çatdı. ABŞ Prezidenti Donald Trampın evsahibliyi və iştirakı ilə Prezident İlham Əliyevlə Ermənistanın Baş naziri Nikol Paşinyan arasında baş tutan Zirvə görüşü diplomatik zəfər kimi yaddaşlara həkk olundu.

"Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis edilməsi haqqında Saziş"in mətni rəsmən paraflandı. Azərbaycan və Ermənistan liderləri tərəfindən, habelə şahid qismində ABŞ Prezidenti tərəfindən imzalanmış Birgə Bəyannamədə Azərbaycan və Ermənistan münaqişənin artıq keçmişdə qaldığını təsdiqlədi. Bununla iki ölkə arasında beynəlxalq sərhədlərin toxunulmazlığı və ərazi əldə olunması üçün güc tətbiqetmənin yolverilməzliyi əsasında qonşuluq münasibətlərinin qurulması üçün şərtlərin yarandığı bəyan edildi.

Sözügedən tarixdə əldə olunan mühüm nailiyyətlərdən biri də iki ölkənin xarici işlər nazirlərinin birgə müraciəti əsasında ötən il dekabrın 1-də ATƏT-in Minsk prosesinin və onunla bağlı strukturlarının rəsmən ləğv edilməsi oldu. Beləliklə, vasitəçilik adı altında prosesi uzadan mexanizmlər tarixdən silindi.

Ağ Evdə Azərbaycanın əsas hissəsini Naxçıvan Muxtar Respublikası ilə maneəsiz bağlayacaq Zəngəzur dəhlizinin (TRIPP) açılması üzrə tarixi razılıq əldə olundu. Bu layihə Orta dəhlizin ən vacib hissəsinə çevrilərək Avrasiya nəqliyyat xəritəsini yenidən tərtib edir.

6

## Azərbaycanın yeni dövlət davranış modeli: müdafiə diplomatiyasından strateji təşəbbüskarlığa

ABŞ ilə siyasi dialoqun intensivləşməsi, Avropa İttifaqı ilə enerji və nəqliyyat sahələrində əməkdaşlığın genişlənməsi, Çinlə Orta dəhliz üzrə əlaqələrin inkişafı, Körfəz ölkələrinin bərpaolunan enerji və logistika layihələrinə artan marağı eyni geosiyasi tendensiyanın müxtəlif istiqamətlərini əks etdirir. Bu münasibətlərin hər biri fərqli siyasi və iqtisadi maraqlara əsaslansa da, onları birləşdirən ortaq məqam Azərbaycanın etibarlı, məsuliyyətli və uzunmüddətli tərəfdaş kimi qəbul edilməsidir.

Xüsusilə Vaşinqtonda keçirilmiş yüksəksəviyyəli Azərbaycan-ABŞ-Ermənistan görüşü göstərdi ki, Azərbaycan artıq regional məsələlərin yalnız müzakirə olunduğu ölkə deyil, onların həllində fəal rol oynayan və sülh gündəliyinin formalaşmasına təsir



göstərən siyasi aktordur. Eyni zamanda Avropa İttifaqı ilə münasibətlərdə əməkdaşlığın enerji sahəsindən "yaşıl enerji", nəqliyyat, rəqəmsal bağlantılar və kritik xammal istiqamətlərinə doğru genişlənməsi tərəfdaşlığın strateji xarakter aldığını nümayiş etdirir.

4

## Türk birliyi: tarixi yaddaşdan yeni geosiyasi gücə doğru

Ölkəmizin 2020-ci ildə qazandığı Zəfər, 2023-cü ildə Qarabağda suverenliyini tam bərpa etməsi türk dünyasının inteqrasiya prosesinə yeni siyasi və mənəvi dinamika verdi. Qarabağ məsələsi Azərbaycan üçün ərazi bütövlüyünün bərpası olduğu qədər, türk dünyası üçün də ortaq yaddaşın, həmrəyliyin və siyasi iradənin sınağı idi. 2024-cü ilin iyulunda Şuşada Türk Dövlətləri Təşkilatının dövlət başçılarının ilk qeyri-rəsmi Zirvə görüşünün keçirilməsi təsadüfi deyildi. Azərbaycanın təşəbbüsü ilə keçirilən bu görüş Şuşanı türk dünyasının siyasi dialoqu üçün yeni simvolik mərkəzə çevirdi.

Ümumiyyətlə, türk dünyasının bugünkü inteqrasiya prosesini Azərbaycanın rolu olmadan təsəvvür etmək mümkün deyil. Bu baxımdan Prezident İlham Əliyevin fəaliyyətini yalnız Azərbaycan-Türkiyə münasibətləri və ya ikitərəfli əlaqələr çərçivəsində qiymətləndirmək doğru olmazdı. Daha geniş aspektdən baxdıqda Prezident İlham Əliyevin türk dünyasının siyasi, iqtisadi və strateji yaxınlaşmasının əsas memarlarından biri kimi çıxış etdiyini görürük. Bu, sadəcə, siyasi ritorika deyil, son illərin ardıcıl hadisələrindən çıxarılan analitik nəticədir.

Sözsüz ki, türk dünyasının inteqrasiyasının ən real tərəfi iqtisadi əməkdaşlıqdır. Türk Dövlətləri Təşkilatının iqtisadi əmək-



daşlıq mexanizmləri artıq ticarət, investisiya, sahibkarlıq, gömrük, nəqliyyat və maliyyə sahələrini əhatə edir. Türk İnvestisiya Fondunun yaradılması bu baxımdan xüsusi əhəmiyyət daşıyır. Fondun ilkin kapitalının 500 milyon dollar müəyyən edilməsi, qarşılıqlı investisiyaların artırılması, kiçik və orta sahibkarlığın inkişafı və innovasiyaların dəstəklənməsi istiqamətində fəaliyyəti yeni imkanlar yaradır. Kapitalın, texnologiyanın, istehsal zəncirlərinin və sahibkarlıq imkanlarının türk dövlətləri arasında daha sərbəst hərəkəti, əslində, yeni bir dövrün başlanğıcıdır. Bu proses dərinləşərsə, türk dünyası ayrı-ayrı milli bazarların cəmi olmaqdan çıxaraq bir-birini tamamlayan iqtisadi məkana çevrilə bilər.

7

## ATƏT-in Minsk qrupunun ləğvi - tarixi zərurətdən yeni reallığa

İkinci Qarabağ müharibəsi başlayanda Azərbaycanın qarşısında mürəkkəb siyasi və diplomatik vəziyyət yaranmışdı. Prezident İlham Əliyev həmin dövrün reallıqlarını belə ifadə etmişdir: "İkinci Qarabağ müharibəsi başlayanda onların hamısı dərhal dayanmağı tələb edirdi. Bəziləri çox, digərləri az bezdirici şəkildə qorxudur, təhdid edir, zəng edirdilər. Amma hamısı istəyirdi ki, biz dayanaq, hər şeyi olduğu kimi saxlayaq. Bir məqamda bəziləri təklif edirdi: "Yaxşı, Füzuli azad edilib, amma dayanın". Müxtəlif diplomatik mexanizmlərdən istifadə etməli olduq. Bəli, Azərbaycan öz haqlı mövqeyindən geri çəkilmədi. Zəfərlə başa çatan İkinci Qarabağ müharibəsi Cənubi Qafqazda tamamilə yeni siyasi reallıq yaratdı. İlk növbədə BMT Təhlükəsizlik Şurasının qətnamələrində əks olunan əsas prinsiplər təmin edildi. Baxmayaraq ki, dövlətimizin başçısının da qeyd etdiyi kimi, müəyyən qüvvələrin məqsədi Azərbaycanın öz ərazi bütövlüyünü bərpa etməsinə imkan verməmək idi. Amma artıq gec idi.




Vətən müharibəsindən sonra da sülhün təşəbbüsçüsü Azərbaycan oldu. Həm də bu səbəbdən ATƏT-in Minsk qrupunun əvvəlki formatda fəaliyyət göstərməsi üçün obyektiv əsaslar aradan qalxdı. Yeni siyasi vəziyyət isə yeni yanaşmalar və yeni mexanizmlər tələb edirdi. ATƏT-in Minsk prosesinə və onunla əlaqəli strukturların fəaliyyətinə xitam verilməsi də məhz yaranmış yeni reallıqların beynəlxalq səviyyədə qəbulunun nəticəsi oldu.

6

## N.Z.Nağdəliyevin Azərbaycan Respublikasının Estoniya Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Nemət Zeynal oğlu Nağdəliyev Azərbaycan Respublikasının Estoniya Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 avqust 2026-cı il*

## A.A.Məhərrəmovun Azərbaycan Respublikasının Estoniya Respublikasında fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılması haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Anar Abel oğlu Məhərrəmov Azərbaycan Respublikasının Estoniya Respublikasında fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 avqust 2026-cı il*

## İ.Ş.Davudovun Azərbaycan Respublikasının Pakistan İslam Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

İrfan Şakir oğlu Davudov Azərbaycan Respublikasının Pakistan İslam Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 avqust 2026-cı il*

## İ.Ş.Davudovun Azərbaycan Respublikasının Malayziyada, eyni zamanda Bruney Darüssalamda fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılması haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

İrfan Şakir oğlu Davudov Azərbaycan Respublikasının Malayziyada, eyni zamanda Bruney Darüssalamda fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 avqust 2026-cı il*

## X.N.Fərhadovun Azərbaycan Respublikasının Malayziyada fövqəladə və səlahiyyətli səfiri təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Xəzər Nadir oğlu Fərhadov Azərbaycan Respublikasının Malayziyada fövqəladə və səlahiyyətli səfiri təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 avqust 2026-cı il*

## X.N.Fərhadovun Azərbaycan Respublikasının Pakistan İslam Respublikasında fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılması haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Xəzər Nadir oğlu Fərhadov Azərbaycan Respublikasının Pakistan İslam Respublikasında fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 avqust 2026-cı il*

# "Dövlət qulluğu haqqında" və "Media haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci, 10-cu, 13-cü, 16-cı və 19-cu bəndlərini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** "Dövlət qulluğu haqqında"Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 1, maddə 1 (Cild I); 2024, № 5 (I kitab), maddə 489, № 7, maddə 748, № 8, maddə 934; 2025, № 2, maddə 96, № 6, maddə 539, № 7, maddə 606, № 12 (I kitab), maddə 1123; 2026, № 1, maddə 15, № 3, maddə 210; Azərbaycan Respublikasının 2026-cı il 19 iyun tarixli 425-VIIQD nömrəli Qanunu) 2.2-ci, 8.1.3-cü, 11.1.3.11-ci, 11.1.5.8-ci və 11.1.5.9-cu maddələrində "Audiovizual" sözü "Media və Yayım" sözləri ilə əvəz edilsin.

**Maddə 2.** "Media haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 2, maddə 90 (Cild I); 2024, № 5 (I kitab), maddələr 488, 494, № 7, maddə 775; 2025, № 2, maddə 100,№ 4 (I kitab), maddə 318, № 8, maddə 741; 2026, № 3, maddə 210, № 4, maddə 294; Azərbaycan Respublikasının 2026-cı il 21 aprel tarixli 387-VIIQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 1.1.33-cü maddədə "Audiovizual" sözü "Media və Yayım" sözləri ilə əvəz edilsin;

2.2. 5.6-cı maddədən "və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum)" sözləri çıxarılsın;

2.3. 10-cu maddə üzrə:

2.3.1. 10.1-ci maddədə "müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum)" sözləri "Şura" sözü ilə əvəz edilsin;

2.3.2. 10.2-ci maddədə "Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum)" sözləri "Şura" sözü ilə əvəz edilsin;

2.4. 11.2-1-ci (ikinci halda), 11.2-2-ci və 11.2-4-cü (birinci halda) maddələrdə ismin müvafiq hallarında "müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum)" sözləri ismin müvafiq hallarında "Şura" sözü ilə əvəz edilsin;

2.5. 12-ci maddə üzrə:

2.5.1. 12.2-ci maddədə "müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum)" sözləri "Şura" sözü ilə əvəz edilsin;

2.5.2. 12.5-ci maddənin birinci cümləsində "Audiovizual" sözü "Media Reyestrinə daxil edilmiş" sözləri ilə əvəz edilsin və həmin maddənin ikinci cümləsi çıxarılsın;

2.5.3. 12.6-cı maddə ləğv edilsin;

2.6. 16.3-cü maddənin ikinci cümləsində "müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum)" sözləri "Şura" sözü ilə əvəz edilsin;

2.7. 17.5-ci maddədən "və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum)" və "özlərinin" sözləri çıxarılsın, həmin maddədə "saytlarında" sözü "informasiya ehtiyatında" sözləri ilə, "etməlidirlər" sözü "etməlidir" sözü ilə əvəz edilsin;

2.8. 26.7-ci maddə aşağıdakı redaksiyada verilsin:

"26.7. Media subyektləri Şuraya təsisçiləri və iştirakçıları, habelə idarəetmə orqanının rəhbəri barədə məlumatı hər il dekabrın 30-dək təqdim etməlidirlər.";

2.9. 4-cü fəslin adı aşağıdakı redaksiyada verilsin:

"4-cü fəsil **Media və yayım sahəsində səlahiyyətli orqan";**

2.10. 43-cü maddə üzrə:

2.10.1. adında "Audiovizual media sahəsini tənzimləyən" sözləri "Media və yayım sahəsində səlahiyyətli" sözləri ilə əvəz edilsin;

2.10.2. 43.1-ci və 43.2-ci maddələr aşağıdakı redaksiyada verilsin:

"43.1. Azərbaycan Respublikasında media və yayım sahəsində səlahiyyətli dövlət orqanı Şuradır.

43.2. Şuranın saxlanma xərcləri və fəaliyyəti, habelə maddi-texniki təminatı Azərbaycan Respublikasının dövlət büdcəsi və qanunda nəzərdə tutulan digər mənbələr hesabına maliyyələşdirilir.";

2.11. 46-cı maddə üzrə:

2.11.1. 46.1.1-ci maddədən "və qüvvədə olan normativ hüquqi aktlara əməl edilməsinə nəzarəti" sözləri çıxarılsın;

2.11.2. aşağıdakı məzmunda 46.1.1-1-ci maddə əlavə edilsin:

"46.1.1-1. media və yayım sahəsində qüvvədə olan normativ hüquqi aktlara əməl edilməsinə nəzarəti həyata keçirmək;";

2.11.3. 46.1.2-ci maddədə "audiovizual media" sözləri "media və yayım" sözləri ilə əvəz edilsin;

2.12. 47-ci maddə üzrə:

2.12.1. 47.1.1-ci və 47.1.2-ci maddələrdə "audiovizual media" sözləri "media və yayım" sözləri ilə əvəz edilsin;

2.12.2. aşağıdakı məzmunda 47.1.9-1 - 47.1.9-17-ci maddələr əlavə edilsin:

"47.1.9-1. media subyektlərinin iqtisadi müstəqilliyinin gücləndirilməsi istiqamətində tədbirlər görmək;

47.1.9-2. dövlət orqanları (qurumları) ilə media subyektləri arasında əməkdaşlığın genişləndirilməsi və möhkəmləndirilməsi, dövlət orqanlarının (qurumlarının) media subyektləri ilə əlaqələrinin təkmilləşdirilməsi və qarşılıqlı etimadın artırılması ilə əlaqədar tədbirlər həyata keçirmək;

47.1.9-3. jurnalistlərin peşəkarlığının və məsuliyyətinin artırılması, media sahəsində mütəxəssislərin hazırlanması və əlavə təhsilinin təşkili məqsədilə tədbirlər (təlimlər, seminarlar və s.) həyata keçirmək, həmçinin media nümayəndələri üçün müsabiqələr təşkil etmək;

47.1.9-4. əhalinin və ya müəyyən təbəqənin maarifləndirilməsinə, ictimai normalara uyğun davranış qaydalarının formalaşdırılmasına, onların diqqətinin cəmiyyətdəki aktual məsələlərə cəlb edilməsinə yönəlmiş proqramları və materialları sifariş vermək və mediada yayımlanmasını təmin etmək;

47.1.9-5. audiovizual məhsulların istehsalı və yayımı üzrə dövlət sifarişçisi kimi çıxış etmək, bu məqsədlə müsabiqələr keçirmək;

47.1.9-6. cəmiyyətdə baş verən hadisələrin, dövlət siyasətinin mediada ədalətli, balanslı, obyektiv, qərəzsiz işıqlandırılmasına, media subyektlərində peşə etikası (etik davranış) qaydalarına riayət edilməsinə, vətəndaşın, cəmiyyətin və dövlətin informasiya təhlükəsizliyinin təmin olunmasına istiqamətlənmiş layihələrin həyata keçirilməsi üçün tədbirlər görmək;

47.1.9-7. media subyektlərinin inkişafına, iqtisadi müstəqilliyinin gücləndirilməsinə, fəaliyyətinin təkmilləşdirilməsinə yönəlmiş, dövlət və cəmiyyət üçün əhəmiyyət kəsb edən layihələrin həyata keçirilməsini təşkil etmək, bu məqsədlə müsabiqələr keçirmək;

47.1.9-8. bu Qanunun 47.1.9-3-cü, 47.1.9-5-ci və 47.1.9-7-ci maddələrində nəzərdə tutulan müsabiqə qaydalarını təsdiq etmək;

47.1.9-9. media sahəsində yeni informasiya-kommunikasiya texnologiyalarının və innovasiyaların tətbiqinin stimullaşdırılması istiqamətində tədbirlər görmək;

47.1.9-10. dezinformasiyanın yayılmasının qarşısının alınması, o cümlədən onun aşkarlanması, qiymətləndirilməsi və aradan qaldırılması istiqamətində tədbirlər görmək;

47.1.9-11. dezinformasiyanın yayılması risklərinin azaldılması və nəticələrinin minimuma endirilməsi məqsədilə aidiyyəti dövlət orqanları (qurumları) ilə birgə operativ əlaqələndirmə mexanizmlərini qurmaq və fəaliyyətini təmin etmək;

47.1.9-12. media subyeklərinin fəaliyyəti ilə bağlı təhlillər aparmaq, habelə ictimai rəyin öyrənilməsini təşkil etmək;

47.1.9-13. informasiya mühitinin təhlili və sosioloji sorğular əsasında ictimai rəyi, dövlət və cəmiyyət arasında qarşılıqlı münasibətlərin inkişaf dinamikasını və tendensiyalarını, dövlət orqanlarının (qurumlarının) fəaliyyəti ilə bağlı ictimai fikri öyrənmək, cəmiyyət üçün əhəmiyyət kəsb edən məsələləri müəyyən etmək və təkliflər vermək;

47.1.9-14. mediada, o cümlədən sosial şəbəkə platformalarında rəqəmsal məzmunun təhlilini həyata keçirmək və nəticəsinə uyğun tədbirlər görmək;

47.1.9-15. media subyektlərinin fəaliyyəti qanunla nəzərdə tutulan tələblərə cavab vermədikdə, bununla bağlı tədbir görülməsi məqsədilə aidiyyəti üzrə müraciət etmək;

47.1.9-16. Media Reyestrini formalaşdırmaq, aparmaq, ondan istifadə edilməsinə və məlumatların mühafizəsinə nəzarət etmək;

47.1.9-17. Media Reyestrinə daxil edilmiş media subyektlərinə Media Reyestri şəhadətnaməsi, jurnalistlərə isə jurnalist vəsiqəsi vermək;";

2.12.3. 47.1.11-ci maddədən "audiovizual" sözü çıxarılsın;

2.12.4. 47.1.14-cü maddədə "veb-saytının" sözü "rəsmi internet informasiya ehtiyatının" sözləri ilə, "saytda" sözü "internet informasiya ehtiyatında" sözləri ilə əvəz edilsin;

2.12.5. 47.2.1 - 47.2.3-cü maddələrdə "audiovizual media" sözləri "media və yayım" sözləri ilə əvəz edilsin;

2.12.6. aşağıdakı məzmunda 47.2.3-1 - 47.2.3-5-ci maddələr əlavə edilsin:

"47.2.3-1. xüsusi bülletenlər və digər nəşrlər buraxmaq;

47.2.3-2. media sahəsində peşə (etik) davranış qaydalarına riayət edilməsi üzrə araşdırmalar aparmaq və bu istiqamətdə tövsiyələr hazırlamaq;

47.2.3-3. "Reklam haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq sosial reklamlar sifariş vermək;

47.2.3-4. fəaliyyət istiqamətlərinə uyğun olaraq təhlillərin aparılması, sorğuların keçirilməsi, hesabatların, rəy və təkliflərin hazırlanması məqsədilə fiziki və hüquqi şəxslərə sifarişlər vermək;

47.2.3-5. fəaliyyət istiqamətlərinə aid məsələlərlə bağlı beynəlxalq tədbirlərdə, o cümlədən forum, konfrans, sərgi və digər tədbirlərdə iştirak etmək və belə tədbirlərin keçirilməsini təşkil etmək;";

2.12.7. aşağıdakı məzmunda 47.2.6-1 - 47.2.6-4-cü maddələr əlavə edilsin:

"47.2.6-1. istifadəsinə verilmiş dövlət əmlakı üzərində normativ hüquqi aktlarla müəyyən olunmuş hüquqlardan istifadə etmək;

47.2.6-2. səlahiyyətlərinə aid edilmiş məsələlərlə bağlı məhkəmələrdə müvafiq prosessual qanunvericilikdə nəzərdə tutulmuş hüquqları həyata keçirmək;

47.2.6-3. "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq satınalmalar təşkil etmək;

47.2.6-4. strukturuna daxil olmayan tabeliyindəki qurumların yaradılması, yenidən təşkil və ləğv edilməsi üçün təkliflər vermək;";

2.13. 48-ci maddə üzrə:

2.13.1. 48.2-ci maddəyə "Şuranın" sözündən sonra "sədri və" sözləri əlavə edilsin;

2.13.2. 48.6-cı maddədə "Şuranın sədrini" sözləri "2 (iki) sədr müavini" sözləri ilə əvəz edilsin;

2.13.3. 48.7-ci maddə ləğv edilsin;

2.13.4. aşağıdakı məzmunda 48.7-1-ci və 48.8.1-1-ci maddələr əlavə edilsin:

"48.7-1. Şuranın iclasları onun üzvlərinin yarıdan çoxu iştirak etdikdə səlahiyyətlidir. Şuranın qərarları onun üzvlərinin sadə səs çoxluğu ilə qəbul edilir. Şuranın qərarı qəbul edilərkən səslər bərabər olduqda, Şura sədrinin səsi həlledici hesab edilir.";

"48.8.1-1. Müəyyən edilmiş struktur, əməyin ödənişi fondu və işçilərin say həddi daxilində Şuranın Aparatının strukturunu, ştat cədvəlini, ayrılmış büdcə təxsisatı daxilində onların gəlir və xərclər smetasını təsdiq edir;";

2.13.5. 48.8.3-cü maddəyə "azad edir" sözlərindən sonra ", onlar barəsində həvəsləndirmə və intizam tənbehi tədbirləri görür" sözləri əlavə edilsin və həmin maddədən birinci halda "edir" sözü çıxarılsın;

2.13.6. aşağıdakı məzmunda 48.9-cu maddə əlavə edilsin:

"48.9. Şuranın sədri öz səlahiyyətlərinin bir hissəsinin həyata keçirilməsini, yaxud vəzifələrinin müvəqqəti icrasını müavinlərindən birinə həvalə edə bilər.";

2.14. 49.1-ci maddə aşağıdakı redaksiyada verilsin:

"Şura sədri 12000 manat məbləğində, sədr müavinləri 11000 manat məbləğində, Şuranın digər üzvləri isə 9000 manat məbləğində aylıq vəzifə maaşı alırlar.";

2.15. 54.7-ci, 55.8-ci, 57.6-cı və 58.3-cü maddələr ləğv edilsin;

2.16. 62.2-ci maddədə "müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma)" sözləri "Şuraya" sözü ilə əvəz edilsin;

2.17. 65-ci maddə üzrə:

2.17.1. 65.2-ci maddədə "Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum)" sözləri "Şura" sözü ilə əvəz edilsin;

2.17.2. 65.4-cü maddə üzrə:

2.17.2.1. birinci abzasda "Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum)" sözləri "Şura" sözü ilə əvəz edilsin;

2.17.2.2. 65.4.4-cü maddədə "müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma)" sözləri "Şuraya" sözü ilə əvəz edilsin;

2.18. 70-ci maddə üzrə:

2.18.1. 70.1-ci maddə üzrə:

2.18.1.1. birinci cümlədə "müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum)" sözləri "Şura" sözü ilə əvəz edilsin;

2.18.1.2. ikinci cümlədən ", onun verilməsinə və ya dəyişdirilməsinə görə ödənişin məbləği və həmin vəsaitdən istifadə qaydası" sözləri çıxarılsın;

2.18.2. 70.3-cü maddənin ikinci cümləsində, 70.5-ci və 70.6-cı maddələrdə "müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma)" sözləri "Şuraya" sözü ilə əvəz edilsin;

2.19. 73-cü maddə üzrə:

2.19.1. 73.2-ci maddədə "müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən idarə olunan elektron" sözləri "Şura tərəfindən aparılan" sözləri ilə əvəz edilsin;

2.19.2. 73.4-cü maddə ləğv edilsin;

2.19.3. 73.5-ci maddədə "müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma)" sözləri "Şuraya" sözü ilə əvəz edilsin;

2.20. 74-cü maddə üzrə:

2.20.1. 74.3-cü maddədə "müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum)" sözləri "Şura" sözü ilə əvəz edilsin;

2.20.2. 74.4-cü maddə aşağıdakı redaksiyada verilsin:

"74.4. Şura lisenziyanın verildiyi tarixdən 3 (üç) iş günü müddətində həmin audiovizual media subyektləri barədə məlumatları Media Reyestrinə daxil edir.";

2.21. 75-ci maddə üzrə:

2.21.1. 75.1.6-cı, 75.1.6-1-ci, 75.1.6-5-ci, 75.1.6-6-cı, 75.1.7-ci (hər iki halda), 75.2-ci və 75.4-cü maddələrdə ismin müvafiq hallarında "müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum)" sözləri ismin müvafiq hallarında "Şura" sözü ilə əvəz edilsin;

2.21.2. 75.2-1-ci maddə üzrə:

2.21.2.1. birinci cümlədə birinci halda "müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum)" sözləri "Şura" sözü ilə əvəz edilsin;

2.21.2.2. ikinci cümlədə "Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun)" sözləri "Şuranın" sözü ilə əvəz edilsin;

2.21.3. 75.5-ci maddə aşağıdakı redaksiyada verilsin:

"75.5. Şura tərəfindən lisenziyanın ləğvi barədə qərar qəbul edildiyi gündən 3 (üç) iş günü müddətində həmin qərar əsasında audiovizual media subyekti Media Reyestrindən çıxarılır.";

2.22. 76.1.2-ci və 76.1.3-cü maddələrdə "müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum)" sözləri "Şura" sözü ilə əvəz edilsin;

2.23. 78.3-cü maddədə "müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma)" sözləri "Şuraya" sözü ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 14 iyul 2026-cı il*

# "Media Reyestrinin aparılması Qaydaları"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 26 sentyabr tarixli 1846 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

"Media Reyestrinin aparılması Qaydaları"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 26 sentyabr tarixli 1846 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 9, maddə 1035 (Cild I); 2024, № 6 (I kitab), maddə 654, № 8, maddə 937) aşağıdakı dəyişikliklər edilsin:

1. 4-cü hissədə "Medianın İnkişafı Agentliyi" sözləri "Media və Yayım Şurasına tövsiyə edilsin ki" sözləri ilə əvəz edilsin.

2. Həmin Fərmanla təsdiq edilmiş "Media Reyestrinin aparılması Qaydaları" üzrə:

2.1. 2.1-ci bənd üzrə:

2.1.1. 2.1.1-ci yarımbənddə "Medianın İnkişafı Agentliyi (bundan sonra - Agentlik) tərəfindən idarə olunan" sözləri "Media və Yayım Şurası (bundan sonra - Şura) tərəfindən aparılan" sözləri ilə əvəz edilsin;

2.1.2. 2.1.4-cü yarımbənddə "Agentlik" sözü "Şura" sözü ilə əvəz edilsin;

2.1.3. 2.1.7-ci yarımbənddən ", ödənişlər həyata keçirməsinə" sözləri çıxarılsın;

2.2. 4-cü hissə üzrə:

2.2.1. 4.1.8-ci yarımbəndin sonunda nöqtəli vergül işarəsi nöqtə işarəsi ilə əvəz olunsun və 4.1.9-cu yarımbənd ləğv edilsin;

2.2.2. 4.2-ci bənd üzrə:

2.2.2.1. 4.2.1-ci yarımbənddən "ödənişlər barədə məlumatın olması," sözləri çıxarılsın;

2.2.2.2. 4.2.8-ci yarımbəndin sonunda nöqtəli vergül işarəsi nöqtə işarəsi ilə əvəz olunsun və 4.2.9-cu yarımbənd ləğv edilsin;

2.3.6-cı hissə üzrə:

2.3.1.6.1-ci bənddən "və Azərbaycan Respublikasının Audiovizual Şurası" sözləri çıxarılsın və həmin bənddə "edilməsi" sözü "olunması, lisenziya verilmiş audiovizual media subyektləri barədə məlumatların daxil edilməsi," sözləri ilə əvəz edilsin;

2.3.2. 6.4-cü və 6.7-ci bəndlərin birinci cümlələrində "Agentlik" sözü "Şura" sözü ilə əvəz edilsin;

2.3.3. 6.5-ci bənd üzrə:

2.3.3.1. 6.5.1-ci yarımbəndə "olmadıqda" sözündən sonra "(Azərbaycan Respublikasında xarici media subyektlərinin filial və nümayəndəliklərinə münasibətdə Qanunun yalnız 26.5-ci maddəsinin tələbləri tətbiq olunur)" sözləri əlavə edilsin;

2.3.3.2. aşağıdakı məzmunda 6.5.5-1-ci yarımbənd əlavə edilsin:

"6.5.5-1. Azərbaycan Respublikasında xarici media subyektlərinin filial və nümayəndəlikləri olduqda dövlət qeydiyyatına alınmış olmadıqda;";

2.3.3.3. 6.5.6-cı yarımbəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 6.5.7 - 6.5.9-cu yarımbəndlər əlavə edilsin:

"6.5.7. Qanunun 62.6-cı maddəsində nəzərdə tutulmuş tələblərə uyğun olmadıqda;

6.5.8. informasiya agentliklərinin azı 20 (iyirmi) media subyekti ilə informasiya verilməsi (əldə edilməsi) haqqında müqaviləsi, həmçinin azı 5 (beş) xarici ölkədə akkreditasiya olunmuş jurnalistləri olmadıqda;

6.5.9. onlayn media subyektləri özlərinin veb-saytlarında Qanunun 60.2-ci, çap mediası subyektləri isə özlərinin çap mediası məhsullarında Qanunun 63.1-ci maddəsindəki məlumatları düzgün göstərmədikdə.";

2.3.4.6.6.10-cu yarımbənddə "iş" sözü "əmək" sözü ilə əvəz edilsin;

2.3.5. 6.8-ci və 6.14 - 6.16-cı bəndlərdə "Agentliyə" sözü "Şuraya" sözü ilə əvəz edilsin;

2.3.6.6.17-ci bənd üzrə:

2.3.6.1. 6.17.5-ci yarımbəndə "alınmaqla" sözündən sonra "və Azərbaycan Respublikasında xarici media subyektlərinin filial və nümayəndəlikləri istisna olmaqla" sözləri əlavə edilsin;

2.3.6.2. 6.17.6-cı yarımbənddə "tələbləri pozulduqda" sözləri "tələblərinin pozulmasına görə Şura tərəfindən il ərzində 2 (iki) dəfə xəbərdarlıq edildikdən sonra həmin pozuntular təkrar törədildikdə" sözləri ilə əvəz edilsin;

2.3.6.3. aşağıdakı məzmunda 6.17.6-1 - 6.17.6-7-ci yarımbəndlər əlavə edilsin:

"6.17.6-1. media subyektləri (audiovizual media subyektləri istisna olmaqla) tərəfindən Qanunun 13.1-ci, 13.2-ci və 14.1-ci maddələrinin tələblərinin pozulmasına görə Şura tərəfindən il ərzində 2 (iki) dəfə xəbərdarlıq edildikdən sonra həmin pozuntular təkrar törədildikdə;

6.17.6-2. media subyektinin (audiovizual media subyektləri istisna olmaqla) fəaliyyətinin onun təsisçisi (iştirakçısı) olmayan xarici ölkələrin fiziki və ya hüquqi şəxsləri, onların filial və nümayəndəlikləri, həmin şəxslərin Azərbaycan Respublikasında təsis etdikləri hüquqi şəxslər, habelə xarici ölkələrin dövlət qurumları tərəfindən maliyyələşdirilməsi (Qanunun 69.2-ci maddəsi nəzərə alınmaqla) aşkar edildikdə;

6.17.6-3. onlayn media subyektlərinin özlərinin veb-saytlarında Qanunun 60.2-ci maddəsindəki məlumatları göstərmədiyi və ya yanlış göstərdiyi, çap mediası subyektlərinin isə Qanunun 63.2-ci maddəsindəki pozuntuları törətdiyi aşkarlandıqda;

6.17.6-4. media subyektinin (audiovizual media subyektləri istisna olmaqla) təsisçisi (iştirakçısı) və ya idarəetmə orqanının rəhbəri ağır və xüsusilə ağır cinayətlərə görə məsuliyyətə cəlb edildikdə;

6.17.6-5. Qanunun 15.1.5-ci maddəsinin tələblərinin pozulmasına görə Şura tərəfindən il ərzində 3 (üç) dəfə xəbərdarlıq edildikdən sonra həmin pozuntular təkrar törədildikdə;

6.17.6-6. informasiya agentliklərinə Qanunun 61.2-ci maddəsinin tələblərinin pozulmasına görə Şura tərəfindən il ərzində 2 (iki) dəfə xəbərdarlıq edildikdən sonra həmin pozuntular təkrar törədildikdə;

6.17.6-7. Azərbaycan Respublikasında filial və ya nümayəndəlik yaratmış xarici media subyekti tərəfindən Qanunun 14.1-ci maddəsinin tələbləri pozulduqda;";

2.3.6.4. 6.17.7-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

"6.17.7. Reyestrə daxil edilmiş media subyektinin (audiovizual media subyektləri istisna olmaqla) reyestr məlumatlarında dəyişiklik edildikdə, dəyişiklik baş verdiyi tarixdən 14 (on dörd) iş günü müddətində bu məlumatlar müvafiq təsdiqedici sənədlərlə birlikdə Şuraya təqdim edilmədikdə və bu barədə Şura tərəfindən xəbərdarlıq edildikdən sonra həmin pozuntu 1 (bir) ay ərzində aradan qaldırılmadıqda;";

2.3.7. 6.18-ci bənd aşağıdakı redaksiyada verilsin:

"6.18. Şura tərəfindən lisenziyanın ləğvi barədə qərar qəbul edildiyi gündən 3 (üç) iş günü müddətində həmin qərar əsasında audiovizual media subyekti Reyestrdən çıxarılır.";

2.3.8. 6.20-ci bənddə "Agentlik" sözü "Şura" sözü ilə əvəz edilsin;

2.4. 7.1-ci bənd üzrə:

2.4.1. 7.1.4-cü yarımbəndə aşağıdakı məzmunda 2-1-ci abzas əlavə edilsin:

"2-1. xarici ölkələrdə akkreditasiya olunmuş jurnalistlər barədə məlumatlar;";

2.4.2. aşağıdakı məzmunda 7.1.4-1-ci yarımbənd əlavə edilsin:

"7.1.4-1. Azərbaycan Respublikasında xarici media subyektlərinin filial və nümayəndəliklərinin və (və ya) onların redaksiyasının (redaksiyalarının) aşağıdakı məlumatları:

1. bu Qaydaların 7.1.1-ci yarımbəndinin 2-ci, 4-cü (ali təhsili və məhkumluğunun olub-olmaması haqqında məlumat istisna olmaqla), 5-ci və 6-cı abzaslarında nəzərdə tutulmuş məlumatlar;

2. bu Qaydaların 7.1.3-cü yarımbəndinin 2-ci və 3-cü abzaslarında nəzərdə tutulmuş məlumatlar;";

2.5. 12-ci hissə üzrə:

2.5.1. 12.4-cü bənddə "siyahısı" sözü "Reyestrdə olub-olmadığına dair məlumat" sözləri ilə əvəz edilsin;

2.5.2. 12.6-cı bənddən ", ödənişlər" sözü çıxarılsın;

2.5.3. 12.7-ci bənd ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 avqust 2026-cı il*

# "Dövlət qulluğu haqqında"və "Media haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 14 iyul tarixli 449-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar bəzi məsələlərin tənzimlənməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Dövlət qulluğu haqqında" və "Media haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 14 iyul tarixli 449-VIIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1.Azərbaycan Respublikası Media və Yayım Şurası Azərbaycan Respublikası Audiovizual Şurasının hüquqi varisidir, onun hüquq və öhdəlikləri, habelə əmlakı Şuraya keçir;

1.2. Azərbaycan Respublikası Media və Yayım Şurasının işçilərinin say həddi 108 ştat vahididir.

2. "Azərbaycan Respublikası Media və Yayım Şurasının strukturu" təsdiq edilsin (əlavə olunur).

3. "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi" publik hüquqi şəxs ləğv edilsin və onun hüquq və öhdəlikləri, habelə əmlakı Azərbaycan Respublikası Media və Yayım Şurasına (bundan sonra - Şura) verilsin.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

4.1. bu Fərmanın 1.1-ci bəndi və 3-cü hissəsi nəzərə alınmaqla, normativ hüquqi aktların uyğunlaşdırılması ilə bağlı təkliflərini dörd ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

4.2. bir ay müddətində:

4.2.1. Azərbaycan Respublikası Audiovizual Şurasının və "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi" publik hüquqi şəxsin balansında olan dövlət əmlakının Şuranın balansına verilməsini təmin etsin;

4.2.2. cari ildə dövlət büdcəsində Azərbaycan Respublikası Audiovizual Şurası və "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi" publik hüquqi şəxs üçün nəzərdə tutulmuş vəsaitlər dairəsində Şuranın fəaliyyətinin maliyyələşdirilməsinə dair məsələləri həll etsin;

4.3. Şuranın inzibati bina ilə təmin edilməsi ilə bağlı tədbirlər görsün;

4.4. "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, Şuranın işçilərinin Azərbaycan Respublikası Audiovizual Şurası və "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi" publik hüquqi şəxsin işçiləri hesabına komplektləşdirilməsinin təmin edilməsi ilə əlaqədar tədbirlər görsün;

4.5. "Dövlət qulluğu haqqında" və "Media haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 14 iyul tarixli 449-VIIQD nömrəli Qanunundan və bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

5. Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 4 avqust tarixli 911 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, № 8, maddə 440 (Cild I); 2024, № 5 (I kitab), maddə 526; 2025, № 5, maddə 444, № 9, maddə 817; 2026, № 3, maddə 228, № 4, maddə 315; Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 29 iyun tarixli 702 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "İnzibati və yardımçı vəzifələrin Təsnifat Toplusu"nun 2.1.3.14-cü, 2.1.4.20-ci, 2.1.5.2-ci, 2.1.5.10-cu, 2.1.6.2-ci abzaslarında və 2.3.3-cü yarımbəndin 1-ci abzasında "Audiovizual" sözü "Media və Yayım" sözləri ilə əvəz edilsin.

6. "Azərbaycan Respublikasında media sahəsində islahatların dərinləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 12 yanvar tarixli 1249 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 1, maddə 19 (Cild I) 2-ci, 4-6-cı hissələri və 10.2-ci bəndi ləğv edilsin.

7. "Media haqqında" Azərbaycan Respublikasının 2021-ci il 30 dekabr tarixli 471-VIQ nömrəli Qanununun tətbiqi və bundan irəli gələn bir sıra məsələlərin tənzimlənməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 8 fevral tarixli 1589 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 2, maddə 100 (Cild I); 2024, № 6 (I kitab), maddə 654; 2025, № 8, maddə 746) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

7.1. 2.1-ci bənd aşağıdakı redaksiyada verilsin:

"2.1. "Media haqqında" Azərbaycan Respublikası Qanununun 1.1.18-ci, 1.1.19-cu, 11.2-1-ci, 11.2-3-cü, 11.2-4-cü, 11.3-cü, 29.4-cü, 30.1-ci, 33.5-ci maddələrində, 35.1-ci və 35.2-ci maddələrinin birinci cümlələrində, 38.4-cü, 41.4-cü maddələrində, 42.1-ci maddəsinin ikinci cümləsində, 45.2-ci, 47.1.8-ci, 47.1.9-cu, 48.2-ci maddələrində, 54.5-ci və 54.6-cı maddələrinin birinci və ikinci cümlələrində, 57.7-ci, 58.6-cı, 59.2-ci, 62.4-cü maddələrində, 70.1-ci maddəsinin ikinci cümləsində, 70.2-ci maddəsinin ikinci və üçüncü cümlələrində, 73.6-cı, 73.8-ci maddələrində, 75.2-1-ci maddəsinin birinci və ikinci cümlələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;";

7.2. 2.5-ci bənd ləğv edilsin;

7.3. 2.5-1-ci bənddən hər iki halda "(ikinci halda)" sözləri çıxarılsın;

7.4. 2.6-cı bənddə "41.4-cü maddəsində" sözləri "1.1.18-ci, 38.4-cü, 41.4-cü, 47.1.9-cu maddələrində, 54.5-ci maddəsinin birinci və ikinci cümlələrində" sözləri ilə əvəz edilsin və həmin bənddən "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi və Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində" sözləri çıxarılsın;

7.5. 2.7-ci bənd ləğv edilsin;

7.6. 2.8-ci və 2.9-cu bəndlərdən "Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin" sözləri çıxarılsın;

7.7. 2.11-ci bənddən "(birinci halda)" və "(ikinci halda)" sözləri çıxarılsın.

8. "Dövlət qulluğunun inzibati və yardımçı vəzifələri üzrə aylıq vəzifə maaşının minimum məbləğləri, əməyin ödəniş səviyyələri üzrə vəzifələr, səviyyə və pillələr üzrə artım faizləri və aylıq vəzifə maaşlarının məbləğlərinin müəyyən edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 19 mart tarixli 626 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2026, № 3, maddə 230; Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 29 iyun tarixli 702 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "Dövlət qulluğunun inzibati və yardımçı vəzifələri üzrə əməyin ödəniş səviyyələri"ndə aşağıdakı dəyişikliklər edilsin:

8.1. 1.7.18-ci, 1.9.10-cu, 1.11.15-ci, 1.15.8-ci, 1.15.11-ci, 1.19.7-ci, 1.20.7-ci, 1.21.6-cı, 1.22.5-ci və 1.23.6-cı yarımbəndlərdə "Audiovizual" sözü "Media və Yayım" sözləri ilə əvəz edilsin;

8.2. 2.10.2-ci, 2.11.2-ci, 2.12.2-ci və 2.13.2-ci yarımbəndlərdə "Audiovizual Şuranın" sözləri "Media və Yayım Şurasının" sözləri ilə əvəz edilsin.

9. "Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022-2026-cı illər üçün Milli Fəaliyyət Planı"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 4 aprel tarixli 3199 nömrəli Sərəncamında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 4, maddə 339) (Cild I); 2024, № 3, maddə 257, № 5 (I kitab), maddə 529, № 6 (I kitab), maddə 654, № 8, maddə 759, № 11, maddə 1018) aşağıdakı dəyişikliklər edilsin:

9.1. 3-cü hissəyə "Şurasına" sözündən sonra ", Media və Yayım Şurasına" sözləri əlavə edilsin;

9.2. həmin Fərmanla təsdiq edilmiş "Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022-2026-cı illər üçün Milli Fəaliyyət Planı" üzrə Tədbirlər Planı"nın 4.9-cu bəndinin "Əsas icraçılar" sütununda "Sosial Tədqiqatlar Mərkəzi" sözləri "Media və Yayım Şurası" sözləri ilə əvəz edilsin.

10. Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 17 sentyabr tarixli 721 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2025, № 9, maddə 832 (Cild I) ilə təsdiq edilmiş "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2025-2030-cu illər üçün Dövlət Proqramı" üzrə Tədbirlər Planı"nda aşağıdakı dəyişikliklər edilsin:

10.1. 8.1.12-ci yarımbəndin "Digər icraçılar" sütunundan "Sosial Tədqiqatlar Mərkəzi," sözləri çıxarılsın;

10.2. "Qeyd" hissəsinə ikinci halda "yarımbəndlərində" sözündən sonra ", Azərbaycan Respublikasının Media və Yayım Şurasına tövsiyə edilsin ki, bu Dövlət Proqramının 8.1.12-ci yarımbəndində" sözləri ilə əvəz edilsin.

11. "Azərbaycan Respublikası Audiovizual Şurasının strukturunun təsdiqi və işçilərinin say həddinin müəyyən edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 15 aprel tarixli 3216 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 4, maddə 355 (Cild I) ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 avqust 2026-cı il*

*Azərbaycan Respublikası Prezidentinin 7 avqust tarixli Fərmanı ilə təsdiq edilmişdir*

### Azərbaycan Respublikası Media və Yayım Şurasının STRUKTURU

Azərbaycan Respublikası Media və Yayım Şurasının Aparatı (şöbələr və sektorlar).

# Azərbaycan Beynəlxalq İnvestisiya Forumunun Təşkilat Komitəsinin yaradılması haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikasının iqtisadi və investisiya potensialının beynəlxalq səviyyədə təşviqi, əlverişli biznes və investisiya mühitinin daha da təkmilləşdirilməsi, xarici investisiyaların cəlb edilməsi, qeyri-neft sektorunun dayanıqlı inkişafının təmin olunması və ölkənin qlobal iqtisadi sistemə inteqrasiyasının gücləndirilməsi dövlətin sosial-iqtisadi siyasətinin əsas prioritet istiqamətlərindəndir.

Bu məqsədlərə xidmət edən 2025-ci ildə keçirilmiş birinci Azərbaycan Beynəlxalq İnvestisiya Forumu ölkəmizin investisiya imkanlarının beynəlxalq biznes ictimaiyyətinə təqdim edilməsi, dövlət-özəl tərəfdaşlığının inkişafı, xarici investorlar və beynəlxalq maliyyə institutları ilə əməkdaşlığın genişləndirilməsi, habelə yeni investisiya layihələrinin təşviqi baxımından mühüm platforma olmuşdur. Qurulan əməkdaşlıq əlaqələri Forumun davamlı beynəlxalq platforma kimi inkişaf etdirilməsi üçün möhkəm zəmin yaratmışdır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, birinci Azərbaycan Beynəlxalq İnvestisiya Forumunun uğurlu nəticələrini və formalaşmış əməkdaşlıq əlaqələrini nəzərə alaraq, habelə Forumun davamlı beynəlxalq platforma kimi inkişaf etdirilməsi məqsədilə **qərara alıram:**

1. Azərbaycan Beynəlxalq İnvestisiya Forumunun mütəmadi əsasda təşkili məqsədilə aşağıdakı tərkibdə Təşkilat Komitəsi yaradılsın:

**Təşkilat Komitəsinin sədri**

Samir Şərifov - Azərbaycan Respublikası Baş nazirinin müavini

**Təşkilat Komitəsi sədrinin müavini**

Azərbaycan Respublikasının iqtisadiyyat naziri

**Təşkilat Komitəsinin üzvləri:**

Azərbaycan Respublikasının xarici işlər naziri
Azərbaycan Respublikasının maliyyə naziri
Azərbaycan Respublikasının mədəniyyət naziri
Azərbaycan Respublikasının daxili işlər naziri
Azərbaycan Respublikasının fövqəladə hallar naziri
Azərbaycan Respublikasının səhiyyə naziri
Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri
Azərbaycan Respublikasının rəqəmsal inkişaf və nəqliyyat naziri
Azərbaycan Respublikasının energetika naziri
Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri
Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri
Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin rəisi
Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin rəisi
Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin rəisi
Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin sədri
Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin sədri
Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin sədri
Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri
Bakı Şəhər İcra Hakimiyyətinin başçısı
Azərbaycan Respublikası Dövlət Neft Fondunun icraçı direktoru
Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin prezidenti
"Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinin prezidenti
"Azərenerji" Açıq Səhmdar Cəmiyyəti İdarə Heyətinin sədri
"Azərişıq" Açıq Səhmdar Cəmiyyətinin sədri.

2. Bu Sərəncamın 1-ci hissəsi ilə yaradılan Təşkilat Komitəsi:

2.1. 2026-cı il sentyabrın 25-26-da keçiriləcək ikinci Azərbaycan Beynəlxalq İnvestisiya Forumunun təşkilini təmin etsin;

2.2. Azərbaycan Beynəlxalq İnvestisiya Forumunun keçirilməsi ilə bağlı hər il Tədbirlər Planını hazırlasın və icrasını əlaqələndirsin;

2.3. Forumun təşkili və keçirilməsi ilə bağlı digər zəruri məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi Təşkilat Komitəsinin Katibliyi funksiyasını həyata keçirsin.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 avqust 2026-cı il*

# "Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi ilə Tacikistan Respublikasının Təhsil və Elm Nazirliyi arasında illik təhsil kvotalarının qarşılıqlı ayrılması haqqında Saziş"in təsdiq edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. 2026-cı il mayın 21-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi ilə Tacikistan Respublikasının Təhsil və Elm Nazirliyi arasında illik təhsil kvotalarının qarşılıqlı ayrılması haqqında Saziş" təsdiq edilsin.

2. Bu Fərmanın 1-ci hissəsində göstərilən Saziş qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Tacikistan Respublikası Hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 avqust 2026-cı il*

# Baş prokuror Laçın və Qubadlı rayonlarında olub






**Avqustun 7-də Azərbaycan Respublikasının baş prokuroru Kamran Əliyev Laçın və Qubadlı rayonlarında olub.**

Səfər çərçivəsində baş prokuror Laçın Rayon Prokurorluğunun inzibati binasında Laçın, Cəbrayıl, Zəngilan və Qubadlı rayonlarından olan vətəndaşları qəbul edib.

Qəbul zamanı 16 nəfər vətəndaşın müraciəti dinlənilib. Müraciətlər əsasən konkret cinayət işlərinin istintaqı, törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı qanunvericiliyin tələblərinə riayət olunması, məhkəmələrdə baxılan cinayət işləri üzrə dövlət ittihamının müdafiəsi, habelə mülki xarakterli mübahisələr və sosial məsələlərlə bağlı olub.

Vətəndaşlar tərəfindən qaldırılan məsələlərin hərtərəfli araşdırılması və qanunamüvafiq həlli ilə bağlı aidiyyəti struktur rəhbərlərinə müvafiq göstərişlər verilib.

Qəbuldan sonra baş prokuror Laçın Rayon Prokurorluğunun əməkdaşları ilə görüşərək onların iş şəraiti və xidməti fəaliyyəti ilə yerində tanış olub, prokurorluğun qarşısında duran vəzifələrin icrası, fəaliyyətin səmərəli təşkili və işin keyfiyyətinin artırılması ilə bağlı məsələləri müzakirə edib.

Daha sonra Kamran Əliyev Qubadlı rayonuna səfər edib, burada Qubadlı hərbi prokurorluğunda və Qubadlı Rayon Prokurorluğunda müasir və yeni iş şəraiti ilə tanış olub.

Baş prokuror prokurorluq orqanlarının inzibati binalarında əməkdaşların fəaliyyəti üçün yaradılmış şəraitlə tanış olub, xidməti fəaliyyətin təşkili, maddi-texniki təminat, cinayətkarlığa qarşı mübarizənin vəziyyəti, qanunçuluğun təmin edilməsi və vətəndaş müraciətlərinə baxılması istiqamətində görülmüş işlər barədə məlumat alıb.

Səfər çərçivəsində işğaldan azad olunmuş ərazilərdə fəaliyyət göstərən prokurorluq əməkdaşları ilə görüş keçirilib.

Görüşdə çıxış edən baş prokuror Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən genişmiqyaslı bərpa və quruculuq işlərinin uğurla davam etdirildiyini qeyd edib.

Bildirilib ki, işğaldan azad olunmuş ərazilərdə müasir şəhərsalma və infrastruktur layihələrinin həyata keçirilməsi ilə yanaşı, dövlət qurumlarının, o cümlədən hüquq-mühafizə orqanlarının fəaliyyəti üçün müasir tələblərə cavab verən şəraitin yaradılması dövlət siyasətinin mühüm istiqamətlərindən biridir.

Baş prokuror dövlət başçısının prokurorluq orqanlarına göstərdiyi yüksək diqqət və qayğıya görə minnətdarlığını ifadə edib.

Görüşdə prokurorluq orqanlarının üzərinə düşən vəzifələrin məsuliyyətlə yerinə yetirilməsi, qanunun aliliyinin təmin olunması, insan və vətəndaş hüquq və azadlıqlarının etibarlı müdafiəsi, habelə cinayətkarlığa qarşı mübarizənin səmərəli təşkili ilə bağlı məsələlər diqqətə çatdırılıb.

Azərbaycan Respublikası baş prokurorunun müavini - Azərbaycan Respublikasının hərbi prokuroru Bəhruz Əhmədov çıxış edərək hərbi prokurorluq orqanlarının fəaliyyət istiqamətləri, qarşıda duran vəzifələr, hərbi qulluqçuların hüquq və qanuni mənafelərinin müdafiəsi, hərbi intizamın möhkəmləndirilməsi və qanunçuluğun təmin edilməsi sahəsində görülən işlər barədə məlumat verib.

Daha sonra yeni təyin olunmuş prokurorluq əməkdaşı Fuad Mədətov çıxış edərək Qubadlı rayonunda xidmət etməyin onun üçün böyük şərəf və məsuliyyət olduğunu bildirib, yaradılmış şəraitə və göstərilən etimada görə minnətdarlığını ifadə edib.

Sonda baş prokuror əməkdaşların fikir və təkliflərini dinləyib, qaldırılan məsələlər ətrafında müzakirələr aparıb, prokurorluq orqanlarının fəaliyyətinin daha səmərəli təşkili, qanunçuluğun möhkəmləndirilməsi və qarşıya qoyulan vəzifələrin yüksək səviyyədə icrası ilə bağlı müvafiq tapşırıq və tövsiyələr verib.

***"Azərbaycan"***

# Milli Məclisdə Parlamentlərarası Spikerlər Konfransının nümayəndə heyəti ilə görüş keçirilib

**Avqustun 7-də Milli Məclisdə Parlamentlərarası Spikerlər Konfransının ölkəmizdə səfərdə olan baş katibi Ek Nat Dakal və təşkilatın Beynəlxalq əməkdaşlıq üzrə direktoru Hajime Saito ilə görüş keçirilib.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, görüşdə Milli Məclisin Elm və təhsil komitəsinin sədr müavini Fariz İsmayılzadə, Parlament Aparatının rəhbəri Fərid Hacıyev və digər rəsmi şəxslər iştirak ediblər.

Fariz İsmayılzadə qonaqlara Azərbaycan Parlamentinin beynəlxalq fəaliyyəti barədə məlumat verib. O bildirib ki, Milli Məclis bir sıra beynəlxalq parlament təşkilatları ilə uğurlu əməkdaşlıq edir, onların bir neçəsinə sədrliyi həyata keçirir. Milli Məclisin deputatı Azərbaycan parlamentinin Qoşulmama Hərəkatının Parlament Şəbəkəsində, Parlamentlərarası İttifaqda, həmçinin regional parlament təşkilatlarında aktiv fəaliyyət göstərdiyini diqqətə çatdırıb. O, Milli Məclisin parlament diplomatiyasının inkişafı sahəsində gördüyü işlər, parlamentlərarası əlaqələr üzrə işçi qruplarının rolu, ölkəmizin COVID-19 pandemiyası zamanı beynəlxalq təşəbbüsləri və bir sıra ölkələrə yardımları barədə fikirlərini paylaşıb.

Azərbaycan və onun paytaxtı haqqında xoş təəssüratlarını bölüşən Parlamentlərarası Spikerlər Konfransının baş katibi Ek Nat Dakal bu qurumun fəaliyyəti və gördüyü işlər barədə danışıb. O, Pakistanda keçirilmiş 1-ci Parlamentlərarası Spikerlər Konfransında müzakirə edilmiş məsələlərin əhəmiyyəti, Kambocada keçiriləcək 2-ci Konfrans, parlament diplomatiyasının dövlətlərarası münasibətlərdə rolu, Azərbaycan Parlamenti ilə əlaqələrin gələcək inkişafı və digər məsələlər barədə fikirlərini bölüşüb.

Sonra Milli Məclis Aparatının rəhbəri Fərid Hacıyev müsəlman Şərqində ilk demokratik respublika olan Azərbaycanın parlamentarizm tarixi, hazırkı Milli Məclisin strukturu, fəaliyyəti, beynəlxalq münasibətləri barədə fikirlərini çatdırıb.

Görüşdən sonra qonaqlar Milli Məclisin inzibati binası ilə tanış olublar. Fərid Hacıyev onlara Milli Məclisin Sədri Sahibə Qafarovanın təşəbbüsü ilə parlamentin foyesində yaradılmış və Vətən müharibəsində qazanılmış qələbəyə həsr olunmuş Zəfər guşəsi, parlamentin plenar iclas zalında yaradılmış iş şəraiti, qanunvericilik prosesinin həyata keçirilməsi prosedurları haqqında geniş məlumat verib.

***"Azərbaycan"***

# Sülh prosesində tarixi mərhələ



## Azərbaycanın yeni dövlət davranış modeli: müdafiə diplomatiyasından strateji təşəbbüskarlığa

**Beynəlxalq münasibətlər tarixində elə dövrlər olur ki, dövlətlərin xarici siyasətində baş verən dəyişikliklər təkcə diplomatik fəallığın artması ilə məhdudlaşmır. Belə mərhələlərdə dövlətlər öz geosiyasi davranış modelini yenidən müəyyənləşdirir, regional proseslərə münasibətlərini dəyişir və beynəlxalq sistemdə yeni rol qazanırlar.**

Son bir il ərzində Azərbaycanın xarici siyasətində müşahidə olunan yeniliklər də, hələlik oturuşmayan dünya nuzamının ziddiyyətlərlə dolu çağırışlarına münasibətdə çevik təhlükəsizlik mexanizmlərinin formalaşdırılmasına xidmət edən keyfiyyət dəyişikliklərindən biridir.

Daxili siyasi sabitlik, iqtisadi potensial, hərbi güc, regional təhlükəsizlik mühiti və qlobal geosiyasi proseslər dövlətlərin xarici siyasət prioritetlərinə birbaşa təsir göstərir. Bu baxımdan Azərbaycanın son illərdə həyata keçirdiyi xarici siyasət yalnız diplomatik fəallığın artması ilə deyil, dövlətin beynəlxalq sistemdə funksional rolunun keyfiyyətcə dəyişməsi ilə xarakterizə olunur. Azərbaycanın müasir xarici siyasətinin inkişafını dörd əsas mərhələ üzrə qiymətləndirmək mümkündür.

Birinci mərhələ dövlət müstəqilliyinin möhkəmləndirilməsi və milli dövlət quruculuğu dövrünü əhatə edir. Müstəqilliyin ilk illərində ölkənin qarşısında duran əsas vəzifələr daxili sabitliyin təmin edilməsi, dövlət institutlarının formalaşdırılması və Azərbaycanın beynəlxalq hüququn tamhüquqlu subyekti kimi mövqeyinin möhkəmləndirilməsi idi. Ümummilli Lider Heydər Əliyevin müəyyən etdiyi balanslaşdırılmış xarici siyasət kursu məhz bu strateji hədəflərin həyata keçirilməsinə xidmət etdi. Müxtəlif siyasi mərkəzlərlə praqmatik münasibətlərin qurulması, "Əsrin müqaviləsi"nin imzalanması və enerji diplomatiyasının əsasının qoyulması Azərbaycanın beynəlxalq nüfuzunun formalaşmasında həlledici rol oynadı.

İkinci mərhələ Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkənin iqtisadi, hərbi və diplomatik potensialının ardıcıl şəkildə gücləndirilməsi dövrüdür. Bu mərhələdə həyata keçirilən enerji və nəqliyyat layihələri, Bakı-Tbilisi-Qars dəmir yolu, "Cənub qaz dəhlizi", Ələt Beynəlxalq Dəniz Ticarət Limanı və digər strateji təşəbbüslər Azərbaycanın geoiqtisadi əhəmiyyətini artırdı. Paralel olaraq müasir Silahlı Qüvvələrin formalaşdırılması dövlətin milli təhlükəsizlik imkanlarını keyfiyyətcə yeni səviyyəyə yüksəltdi və xarici siyasətin dayaq sütunlarını daha da möhkəmləndirdi.

Üçüncü mərhələ 2020-ci ildə Vətən müharibəsində qazanılmış tarixi Qələbə və 2023-cü ilin sentyabrında həyata keçirilən lokal xarakterli antiterror tədbirləri nəticəsində ölkənin bütün ərazisində konstitusiya quruluşunun tam bərpası ilə başlanır. Bununla Azərbaycan uzun illər qarşısında duran əsas strateji məqsədə - dövlət suverenliyinin tam təmin edilməsinə nail oldu. Yeni siyasi reallıq xarici siyasətin məqsəd və prioritetlərini də dəyişdirdi. Artıq əsas vəzifə yalnız milli maraqların müdafiəsi deyil, formalaşmış yeni geosiyasi reallığın regional əməkdaşlıq modelinə çevrilməsi idi.

Hazırda müşahidə olunan dördüncü mərhələ Azərbaycanın xarici siyasətinin keyfiyyətcə yeni inkişaf mərhələsini ifadə edir. Bu mərhələnin əsas xüsusiyyəti ondan ibarətdir ki, Azərbaycan mövcud geosiyasi proseslərə uyğunlaşan dövlət kimi deyil, onların istiqamətinə təsir göstərən, yeni əməkdaşlıq platformalarına təşəbbüs edən və regional gündəliyin formalaşmasına töhfə verən aktor kimi çıxış edir. Xarici siyasətin əsas məzmunu müdafiə diplomatiyasından strateji təşəbbüskarlığa keçidlə xarakterizə olunur.

Bu yeni yanaşmanın əsas fərqləndirici cəhəti onun çoxşaxəli və balanslaşdırılmış xarakter daşımasıdır. Azərbaycan eyni vaxtda Avropa İttifaqı ilə enerji və nəqliyyat sahələrində əməkdaşlığı genişləndirir, ABŞ ilə siyasi dialoqu dərinləşdirir, Türk Dövlətləri Təşkilatı çərçivəsində inteqrasiyanın inkişafına töhfə verir, Mərkəzi Asiya dövlətləri ilə strateji tərəfdaşlığı möhkəmləndirir, Çinlə Orta dəhliz üzrə əməkdaşlığı inkişaf etdirir və Körfəz ölkələrinin investisiyalarını cəlb edir. Bu siyasətin əsas üstünlüyü ondan ibarətdir ki, Azərbaycan xarici siyasətini geosiyasi qarşıdurma məntiqi üzərində deyil, milli maraqların qorunması, qarşılıqlı fayda, beynəlxalq hüquqa hörmət və çoxtərəfli əməkdaşlıq prinsipləri əsasında qurur.

Beləliklə, Azərbaycanın müasir xarici siyasəti klassik balanslaşdırma siyasətinin davamı olmaqla yanaşı, onun yeni inkişaf mərhələsini də ifadə edir. Dövlətimiz artıq regional proseslərin müşahidəçisi deyil, onların istiqamətinə təsir göstərən, müxtəlif geosiyasi mərkəzlər arasında dialoqu təşviq edən və əməkdaşlıq üçün yeni imkanlar yaradan strateji təşəbbüskar kimi çıxış edir. Məhz bu yeni dövlət davranış modeli son dövrdə Azərbaycanın beynəlxalq mövqeyinin güclənməsini və artan geosiyasi rolunu şərtləndirən əsas amillərdən biridir.

Müasir beynəlxalq münasibətlər sistemində dövlətlərin geosiyasi mövqeyi



artıq yalnız hərbi güc, iqtisadi potensial və ya təbii resurslarla müəyyən edilmir. Qlobal rəqabətin dərinləşdiyi, geosiyasi qeyri-müəyyənliyin artdığı və beynəlxalq etimadın strateji resursa çevrildiyi bir dövrdə dövlətlərin ən mühüm üstünlüklərindən biri onların formalaşdırdığı etibar kapitalıdır. Bu anlayış dövlətin beynəlxalq öhdəliklərinə sadiqliyini, xarici siyasətinin ardıcıllığını, tərəfdaşları üçün proqnozlaşdırılan aktor olmasını və çoxtərəfli əməkdaşlıq mühitində qazandığı siyasi nüfuzu ifadə edir.

Azərbaycanın son illərdə beynəlxalq nüfuzunun artmasını da ilk növbədə bu kontekstdə qiymətləndirmək lazımdır. Ölkənin geosiyasi əhəmiyyəti yalnız əlverişli coğrafi mövqeyi və enerji ehtiyatları ilə məhdudlaşmır. Əsas üstünlük uzunmüddətli və ardıcıl dövlət siyasəti nəticəsində formalaşmış etibarlı tərəfdaş imicidir. Məhz bu amil Azərbaycana müxtəlif geosiyasi mərkəzlərlə paralel şəkildə əməkdaşlıq qurmağa, rəqabət aparan aktorlar arasında etimad mühiti yaratmağa və regional təşəbbüslərin fəal iştirakçısı kimi çıxış etməyə imkan vermişdir. Bu etibar ilk növbədə enerji diplomatiyasında formalaşmışdır. "Əsrin müqaviləsi" ilə əsası qoyulan strateji xətt Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəməri, Bakı-Tbilisi-Ərzurum qaz kəməri, TANAP, TAP və bütövlükdə "Cənub qaz dəhlizi" kimi layihələrlə ardıcıl şəkildə inkişaf etdirilmişdir. Azərbaycan mürəkkəb geosiyasi şəraitdə belə üzərinə götürdüyü öhdəlikləri vaxtında və etibarlı şəkildə yerinə yetirməklə beynəlxalq enerji təhlükəsizliyinin vacib tərəfdaşlarından birinə çevrilmişdir. Xüsusilə Avropada enerji təhlükəsizliyinin prioritet məsələyə çevrildiyi dövrdə ölkəmizin rolu daha da artmış, Avropa İttifaqı ilə enerji sahəsində strateji tərəfdaşlığın dərinləşməsi bunun praktik təsdiqi olmuşdur.

Etibar kapitalının möhkəmlənməsində nəqliyyat və logistika siyasəti də mühüm rol oynayır. Bakı-Tbilisi-Qars dəmir yolu, Ələt Beynəlxalq Dəniz Ticarət Limanı və Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutunun inkişafı Azərbaycanın yalnız tranzit imkanlarına malik ölkə deyil, Avropa ilə Asiya arasında iqtisadi əlaqələrin davamlılığını təmin edən etibarlı tərəfdaş olduğunu nümayiş etdirir. Bu layihələr ölkəmizin geoiqtisadi əhəmiyyətini artırmaqla yanaşı, qlobal təchizat zəncirlərində etibarlı halqa kimi mövqeyini də möhkəmləndirir.

Azərbaycanın beynəlxalq etimadının mühüm göstəricilərindən biri də COP29-a evsahibliyi etməsi ilə bağlıdır. Bu, Azərbaycanın beynəlxalq dialoq üçün etibarlı platforma kimi qəbul olunduğunu göstərir. Konfrans çərçivəsində qəbul edilmiş qərarlar və əldə olunmuş razılaşmalar ölkəmizin çoxtərəfli diplomatiya sahəsində artan nüfuzunu bir daha təsdiqləmişdir.

Etibar kapitalının digər mühüm mənbəyi Azərbaycanın balanslaşdırılmış xarici siyasətidir. Rəsmi Bakı münasibətlərini geosiyasi qarşıdurma üzərində deyil, qarşılıqlı hörmət, beynəlxalq hüquq və milli maraqların uzlaşdırılması prinsipləri əsasında qurur. Məhz buna görə Azərbaycan eyni vaxtda Türkiyə ilə müttəfiqlik münasibətlərini inkişaf etdirir, Avropa İttifaqı ilə strateji əməkdaşlığı genişləndirir, ABŞ ilə siyasi dialoqu dərinləşdirir, Türk Dövlətləri Təşkilatı çərçivəsində inteqrasiyanı təşviq edir, Mərkəzi Asiya dövlətləri ilə tərəfdaşlığı möhkəmləndirir, Çin və Körfəz ölkələri ilə iqtisadi əlaqələrini inkişaf etdirir. Müxtəlif geosiyasi mərkəzlərlə etimada əsaslanan münasibətlər qurmaq müasir beynəlxalq münasibətlər sistemində dövlətin ən mühüm strateji üstünlüklərindən biridir.

Beləliklə, Azərbaycanın beynəlxalq mövqeyinin güclənməsinin əsas səbəbi yalnız yeni tərəfdaşların sayının artması deyil, etibarlı, məsuliyyətli və proqnozlaşdırılan dövlət kimi formalaşdırdığı siyasi nüfuzdur. Məhz bu etibar kapitalı ölkənin xarici siyasətinin yeni mərhələsinin əsas dayaqlarından birinə çevrilmiş, Azərbaycanın regional təşəbbüslər irəli sürmək, çoxtərəfli əməkdaşlıq platformalarında fəal iştirak etmək və müxtəlif geosiyasi mərkəzlər arasında etibarlı əlaqələndirici rolunu gücləndirmək imkanlarını əhəmiyyətli dərəcədə genişləndirmişdir.

Son illərdə beynəlxalq münasibətlər sistemində baş verən geosiyasi dəyişikliklər Avrasiya məkanının strateji əhəmiyyətini artırmışdır. Qlobal ticarət marşrutlarının yenidən formalaşması, enerji təhlükəsizliyi məsələlərinin aktuallaşması, təchizat zəncirlərinin şaxələndirilməsi və rəqəmsal bağlantıların genişlənməsi Mərkəzi Asiya ilə Cənubi Qafqazı qlobal geoiqtisadi proseslərin mühüm mərkəzlərindən birinə çevirmişdir. Bu şəraitdə Azərbaycanın Türk Dövlətləri Təşkilatı və Mərkəzi Asiya ölkələri ilə əməkdaşlığı xarici siyasətin prioritet istiqamətlərindən biri kimi xüsusi strateji məna kəsb edir. Əgər təşkilatın fəaliyyətinin ilk mərhələsində əməkdaşlığın əsasını ortaq tarix, dil və mədəniyyət təşkil edirdisə, hazırda bu əməkdaşlıq iqtisadi inteqrasiya, nəqliyyat-logistika, enerji təhlükəsizliyi, rəqəmsal transformasiya, investisiya və "yaşıl iqtisadiyyat" kimi istiqamətləri əhatə edən çoxşaxəli tərəfdaşlıq modelinə çevrilmişdir. Bu dəyişiklik Türk Dövlətləri Təşkilatının təkcə siyasi dialoq platforması deyil, həm də geoiqtisadi əməkdaşlıq institutu kimi inkişaf etdiyini göstərir.

Azərbaycan bu transformasiyanın əsas təşəbbüskarlarından biridir. Prezident İlham Əliyevin irəli sürdüyü təşəbbüslər təşkilat daxilində praktiki əməkdaşlıq mexanizmlərinin genişlənməsinə mühüm töhfə vermişdir. Budapeştdə keçirilmiş qeyri-rəsmi Zirvə görüşündə qəbul olunmuş Bəyannamədə Orta dəhlizin inkişafı, nəqliyyat əlaqələrinin gücləndirilməsi, Türk İnvestisiya Fondunun fəaliyyətinin genişləndirilməsi, rəqəmsal inteqrasiya və "yaşıl enerji" sahəsində əməkdaşlığın prioritet istiqamətlər kimi müəyyənləşdirilməsi bunun bariz nümunəsidir.

Qəbələ Zirvə görüşü isə Azərbaycanın türk dünyasının inteqrasiyasında aparıcı rolunu bir daha təsdiqlədi. Zirvə çərçivəsində regional təhlükəsizlik, nəqliyyat-logistika əlaqələrinin genişləndirilməsi, iqtisadi inteqrasiya və Türk Dövlətləri Təşkilatının institusional gücləndirilməsi istiqamətində mühüm qərarlar qəbul edildi ki, bu da Azərbaycanın artan beynəlxalq nüfuzunun və təşəbbüskar diplomatiyasının növbəti təzahürü oldu.

Qəbələ Zirvə görüşündə qəbul olunan qərarlar Türk Dövlətləri Təşkilatının siyasi və iqtisadi əməkdaşlığını yeni mərhələyə yüksəltməklə yanaşı, Azərbaycanın təşkilat daxilində lider mövqeyini və regional sülhün, təhlükəsizliyin təmin edilməsində artan rolunu bir daha nümayiş etdirdi. Bu siyasətin mərkəzində Orta dəhliz dayanır. Müasir geosiyasi şəraitdə Orta dəhliz yalnız alternativ yükdaşıma marşrutu deyil, Avropa ilə Asiya arasında iqtisadi, nəqliyyat və logistika əlaqələrini yeni keyfiyyət mərhələsinə yüksəldən geoiqtisadi platformadır. Bakı-Tbilisi-Qars dəmir yolu, Ələt Beynəlxalq Dəniz Ticarət Limanı və Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu bu platformanın əsas infrastruktur elementlərini təşkil edir. Bu layihələr Azərbaycanın coğrafi mövqeyini strateji üstünlüyə çevirməklə yanaşı, ölkəni Avrasiya nəqliyyat sisteminin əsas əlaqələndirici mərkəzlərindən biri kimi mövqeləndirir.

Mərkəzi Asiya dövlətləri ilə münasibətlər də eyni strateji yanaşma əsasında inkişaf edir. Qazaxıstan, Özbəkistan, Qırğızıstan və Türkmənistanla siyasi dialoqun intensivləşməsi, nəqliyyat, enerji, "yaşıl iqtisadiyyat", rəqəmsal texnologiyalar və investisiya sahələrində həyata keçirilən birgə layihələr göstərir ki, Azərbaycan bu regionu yalnız ikitərəfli əməkdaşlıq müstəvisi kimi deyil, vahid Avrasiya inteqrasiyasının ayrılmaz hissəsi kimi qiymətləndirir.

Bu kontekstdə Xəzər dənizinin geosiyasi funksiyası da dəyişir. Əvvəllər daha çox coğrafi sərhəd kimi qəbul edilən Xəzər bu gün Avropa ilə Mərkəzi Asiyanı birləşdirən mühüm kommunikasiya və əməkdaşlıq məkanına çevrilmişdir. Azərbaycanın müasir liman infrastrukturu, gəmiçilik potensialı və logistika imkanları bu transformasiyada həlledici rol oynayır.

Beləliklə, Türk Dövlətləri Təşkilatı və Mərkəzi Asiya ilə əməkdaşlıq Azərbaycanın xarici siyasətinin ayrıca istiqaməti deyil, onun yeni Avrasiya strategiyasının əsas sütunlarından biridir. Bu strategiya geosiyasi bloklaşmaya deyil, qarşılıqlı faydaya, iqtisadi inteqrasiyaya və davamlı əməkdaşlığa əsaslanır. Məhz bu yanaşma Azərbaycanın Avrasiya məkanında etibarlı tərəfdaş, geoiqtisadi əlaqələndirici və regional əməkdaşlığın təşəbbüskarlarından biri kimi mövqeyini daha da möhkəmləndirir.

Son bir ildə Azərbaycanın xarici siyasətində müşahidə olunan dinamikanın ən mühüm nəticələrindən biri ölkənin beynəlxalq sistemdə funksional rolunun əhəmiyyətli dərəcədə dəyişməsidir. Əgər əvvəlki mərhələlərdə Azərbaycan əsasən enerji istehsalçısı və tranzit ölkə kimi qiymətləndirilirdisə, bu gün o, regional sabitliyin möhkəmləndirilməsinə, geoiqtisadi əməkdaşlığın genişlənməsinə və müxtəlif geosiyasi mərkəzlər arasında dialoqun inkişafına töhfə verən etibarlı strateji tərəfdaş kimi qəbul olunur. Bu dəyişiklik beynəlxalq münasibətlər sistemində baş verən transformasiyalar fonunda xüsusi əhəmiyyət kəsb edir. Qlobal təhlükəsizlik mühitinin mürəkkəbləşməsi, enerji və ərzaq təhlükəsizliyinin ön plana çıxması, təchizat zəncirlərinin yenidən qurulması və geosiyasi rəqabətin dərinləşməsi dövlətləri etibarlı tərəfdaşlarla əməkdaşlığa daha çox üstünlük verməyə sövq etmişdir. Azərbaycanın uzun illər ərzində formalaşdırdığı ardıcıl və proqnozlaşdırılan xarici siyasəti bu yeni reallıqda onun strateji əhəmiyyətini daha da artırmışdır.

ABŞ ilə siyasi dialoqun intensivləşməsi, Avropa İttifaqı ilə enerji və nəqliyyat sahələrində əməkdaşlığın genişlənməsi, Çinlə Orta dəhliz üzrə əlaqələrin inkişafı, Körfəz ölkələrinin bərpaolunan enerji və logistika layihələrinə artan marağı eyni geosiyasi tendensiyanın müxtəlif istiqamətlərini əks etdirir. Bu münasibətlərin hər biri fərqli siyasi və iqtisadi maraqlara əsaslansa da, onları birləşdirən ortaq məqam Azərbaycanın etibarlı, məsuliyyətli və uzunmüddətli tərəfdaş kimi qəbul edilməsidir.

Xüsusilə Vaşinqtonda keçirilmiş yüksəksəviyyəli Azərbaycan-ABŞ-Ermənistan görüşü göstərdi ki, Azərbaycan artıq regional məsələlərin yalnız müzakirə olunduğu ölkə deyil, onların həllində fəal rol oynayan və sülh gündəliyinin formalaşmasına təsir göstərən siyasi aktordur. Eyni zamanda Avropa İttifaqı ilə münasibətlərdə əməkdaşlığın enerji sahəsindən "yaşıl enerji", nəqliyyat, rəqəmsal bağlantılar və kritik xammal istiqamətlərinə doğru genişlənməsi tərəfdaşlığın strateji xarakter aldığını nümayiş etdirir.

Çin üçün Azərbaycan Orta dəhlizin etibarlı halqası, Mərkəzi Asiya dövlətləri üçün Avropa bazarlarına çıxışı təmin edən strateji tərəfdaş, Körfəz ölkələri üçün isə sabit investisiya mühiti və uzunmüddətli iqtisadi əməkdaşlıq platforması kimi çıxış edir. Bu müxtəlif yanaşmaların ortaq məntiqi ondan ibarətdir ki, Azərbaycan müxtəlif geosiyasi maraqları qarşıdurma müstəvisinə deyil, əməkdaşlıq platformasına yönəltməyi bacaran dövlət kimi qəbul edilir.

Beləliklə, son bir ilin diplomatik mənzərəsi göstərir ki, Azərbaycanın beynəlxalq nüfuzunun artması ayrı-ayrı siyasi hadisələrin nəticəsi deyil. Bu, ardıcıl dövlət siyasətinə, etibar kapitalına və milli maraqların çoxtərəfli əməkdaşlıq prinsipləri ilə uzlaşdırılmasına əsaslanan strateji inkişaf modelinin məntiqi nəticəsidir. Məhz bu model Azərbaycanın regional aktordan daha geniş geosiyasi məkanın etibarlı tərəfdaşına çevrilməsini təmin etmişdir.

Son bir ilin xarici siyasət hadisələrinin təhlili göstərir ki, Azərbaycanın beynəlxalq mövqeyində baş verən dəyişikliklər ayrı-ayrı diplomatik uğurların və ya situativ təşəbbüslərin məcmusu deyil. Bu proseslər uzunmüddətli dövlət strategiyasının məntiqi davamı olmaqla, ölkənin beynəlxalq sistemdə funksional rolunun keyfiyyətcə yeni mərhələyə yüksəldiyini təsdiq edir. Azərbaycan artıq regional proseslərə uyğunlaşan dövlət kimi deyil, onların formalaşmasına təsir göstərən, əməkdaşlıq təşəbbüsləri irəli sürən və müxtəlif geosiyasi mərkəzlər arasında etimadın möhkəmlənməsinə töhfə verən məsuliyyətli aktor kimi çıxış edir.

Aparılmış təhlil göstərir ki, bu transformasiyanın əsasını dövlət suverenliyinin tam bərpası, ardıcıl və balanslaşdırılmış xarici siyasət, uzun illər ərzində formalaşdırılmış etibar kapitalı və Azərbaycanın Avrasiya məkanında geoiqtisadi əlaqələndirici rolunun güclənməsi təşkil edir. Məhz bu amillərin vəhdəti ölkənin beynəlxalq nüfuzunu möhkəmləndirmiş, onu regional sabitliyin, enerji təhlükəsizliyinin, nəqliyyat-kommunikasiya əlaqələrinin və çoxtərəfli əməkdaşlığın mühüm iştirakçılarından birinə çevirmişdir. Müasir beynəlxalq münasibətlər sistemində dövlətlərin geosiyasi çəkisi artıq yalnız hərbi və iqtisadi resurslarla müəyyən olunmur. Beynəlxalq etimad formalaşdırmaq, öhdəliklərə sadiqlik nümayiş etdirmək, çoxtərəfli əməkdaşlıq platformalarında təşəbbüskar mövqe tutmaq və milli maraqları qlobal dəyişikliklərə çevik şəkildə uyğunlaşdırmaq dövlətlərin strateji üstünlüyünü müəyyən edən əsas meyarlara çevrilmişdir. Azərbaycanın son illərdə həyata keçirdiyi xarici siyasət bu yanaşmanın uğurlu praktik nümunəsidir.

Beləliklə, Azərbaycanın geosiyasi transformasiyası təkcə milli diplomatiyanın yeni inkişaf mərhələsini deyil, həm də dəyişən beynəlxalq münasibətlər sistemində orta güclü dövlətlərin milli maraqları qorumaqla yanaşı, regional və qlobal əməkdaşlığın formalaşmasına təsir göstərə biləcəyini nümayiş etdirən strateji dövlət davranış modelini ifadə edir.

Bu model Azərbaycanın qarşıdakı dövrdə də Cənubi Qafqazla məhdudlaşmayan, bütövlükdə Avrasiya məkanında etibarlı tərəfdaş, geoiqtisadi əlaqələndirici və konstruktiv diplomatik təşəbbüslərin müəllifi kimi mövqeyini daha da möhkəmləndirəcək.

*Mehriban VƏLİYEVA,*
*Milli Məclisin deputatı*

## Ölkəmizin sülh strategiyası uğurla reallaşır

**2025-ci il avqustun 8-də Vaşinqtonda Azərbaycan və Ermənistan arasında normallaşma prosesinin ən mühüm mərhələlərindən biri yaşandı.**

Həmin gün "Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis edilməsi haqqında Saziş" layihəsinin paraflanması Cənubi Qafqazda uzun illər davam edən münaqişənin hüquqi-siyasi müstəvidə yekunlaşması istiqamətində atılan ən mühüm addım kimi tarixə düşdü. Azərbaycan Prezidenti möhtərəm İlham Əliyevin başlatdığı sülh təşəbbüsünün nəticəsi olan bu hadisə respublikamızın mühüm siyasi-diplomatik uğuru olmaqla, regionda davamlı sülhün, təhlükəsizliyin və əməkdaşlığın formalaşması üçün yeni mərhələnin əsasını qoydu.

Bir il əvvəl Azərbaycanın təşəbbüsləri və ABŞ-nin dəstəyi ilə Vaşinqtonda əldə olunan razılaşmalar regionda dayanıqlı sabitliyin, təhlükəsizliyin və iqtisadi inteqrasiyanın möhkəm təməllərini formalaşdırdı. Keçirilən tarixi görüşlər bir daha sübut etdi ki, Azərbaycanın hər zaman bəyan etdiyi sülh, təhlükəsizlik, qarşılıqlı etimad və suverenliyə hörmət kimi məsələlər regionun rifahının əsas şərtləridir.

44 günlük Vətən müharibəsindən sonra regionda sülhün və sabitliyin bərqərar olunması məqsədi ilə ilk təşəbbüslə çıxış edən məhz rəsmi Bakı oldu. Qalib Azərbaycan prosesləri diplomatiya masasına yönəldərək, Ermənistana beynəlxalq hüququn normalarına əsaslanan 5 əsas prinsipdən ibarət sülh gündəliyini təqdim etdi. Bu prinsiplər qlobal güclər, beynəlxalq təşkilatlar tərəfindən də geniş dəstək qazandı və təqdir edildi. İki ölkə arasında kənar müdaxilələrdən uzaq, birbaşa və intensiv danışıqlar formatının qurulması nəticəsində 2025-ci ilin mart ayında "Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis olunması haqqında Saziş"in ilkin layihəsi üzərində işlər uğurla başa çatdırıldı. Avqustun 8-də isə layihə, əvvəldə qeyd etdiyim kimi, Vaşinqtonda paraflandı. Bu məsələnin dünyanın ən böyük güc mərkəzində rəsmiləşdirilməsi Azərbaycanın sülh modelinin qlobal səviyyədə tam qəbul olunduğunu və dəstəkləndiyini nümayiş etdirdi.



Beləliklə, bir il əvvəl Prezident İlham Əliyevin ABŞ-yə işgüzar səfəri və Vaşinqtonda əldə olunan razılaşmalar Azərbaycanın başlatdığı sülh prosesinin tamamilə yeni mərhələyə keçdiyini aydın nümayiş etdirdi. Tərəflər sülh gündəliyinin mühüm aspektləri üzrə irəliləyişlər əldə edərək, sazişin əsas prinsipləri ilə bağlı razılığın əldə olunduğunu təsdiqlədilər.

Eyni zamanda Prezident İlham Əliyevin ABŞ-yə işgüzar səfərinin praktiki nəticəsi regionda yeni logistika reallıqlarının formalaşdırılması və geniş əməkdaşlıq perspektivlərinin açılması oldu. Belə ki, kommunikasiyaların bərpası istiqamətində konkret addımlar müəyyənləşdirildi, sərhədlərin dəqiqləşdirilməsi prosesinin sürətləndirilməsi qərara alındı.

Vaşinqton sammitindən keçən bir il ərzində Cənubi Qafqazda sülhün və regional inteqrasiyanın möhkəmləndirilməsi istiqamətində misilsiz irəliləyişlər əldə olunub. Bu dövrdə Naxçıvan Muxtar Respublikasını Azərbaycanın əsas hissəsi ilə birləşdirən nəqliyyat və kommunikasiya xətlərinin, TRIPP layihəsinin açılması üzrə konkret işlərə start verilib. Həmçinin ikitərəfli hökumət komissiyalarının fəaliyyəti intensivləşib, sərhəd xətlərinin dəqiqləşdirilməsi işləri uğurla davam etdirilib.

Ötən bir ilin reallıqları göstərir ki, Azərbaycan özünün başlatdığı sülh prosesinə tam sadiqdir. Bunu ərazilərimizin işğalı dövründə respublikamızın Ermənistana qarşı tətbiq etdiyi nəqliyyat-logistika blokadasının aradan qaldırılması istiqamətində praktiki addımlar atması da təsdiq edir. Bu müddət ərzində Azərbaycan ərazisindən tranzit keçməklə Ermənistana müxtəlif məhsulların göndərilməsi, habelə ölkəmizdən Ermənistana yanacağın ixrac edilməsi Bakının sülhə sadiqliyinin əyani sübutudur.

Ermənistandakı revanşist qüvvələrin prosesə kölgə salmaq cəhdlərinə baxmayaraq, sülh mühitinin real iqtisadi faydalarını görən Ermənistan cəmiyyətinin böyük hissəsi də Azərbaycanın başlatdığı normallaşma prosesinə rəğbət göstərir. İyunun 7-də Ermənistanda keçirilmiş parlament seçkilərinin nəticələri də təsdiqlədi ki, Azərbaycanın sülh gündəliyi qarşı tərəfdə yeganə çıxış yolu kimi qəbul edilir. Paralel olaraq, iki ölkə arasında humanitar təmasların, vətəndaş cəmiyyəti və media nümayəndələrinin görüşlərinin baş tutması illərlə formalaşmış psixoloji baryerlərin aradan qaldırılmasına töhfə verir.

Cənab Prezident İlham Əliyev sülh prosesini və onun gətirdiyi müsbət dinamikanı belə qiymətləndirib: "Ötən ilin avqust ayından etibarən hər iki ölkə Prezident Tramp tərəfindən Ağ Evə dəvət olunandan və Birgə Bəyanat imzalanandan sonra və xarici işlər nazirlərinin sülh sazişinin mətnini parafladıqdan sonra bizdə de-fakto sülh var. Həmin vaxtdan etibarən sülh prosesində xeyli müsbət dinamika yaşandı, o cümlədən ticarət başlandı, xüsusən də Azərbaycandan Ermənistana yanacaq məhsulları təchiz olundu, vətəndaş cəmiyyəti və media nümayəndələri arasında görüşlər keçirildi və bütün bunlar uzun illər müharibə şəraitində olan ölkələr arasında normal mühitin yaradılmasına töhfə verir".

Sülh və regional inteqrasiya prosesi Ermənistana daha çox lazımdır. İşğalçılıq siyasəti səbəbindən Cənubi Qafqazın enerji və nəqliyyat layihələrindən kənarda qalan İrəvan məhz Azərbaycanın yaratdığı yeni geosiyasi şərait sayəsində iqtisadi və kommunikasiya blokadasından çıxmaq imkanı əldə edib. Bakının irəli sürdüyü sülh gündəliyi Ermənistan üçün iqtisadi dirçəlişə nail olmağın yeganə yoludur. Buna görə də rəsmi İrəvan sülh prosesini ləngidən lazımsız bəhanələrdən imtina etməli, tarixi şansı öz cəmiyyətinin rifahı naminə dəyərləndirməlidir. Sülh prosesinin de-yure müstəviyə keçməsi tamamilə Ermənistanın atacağı hüquqi-siyasi addımlardan asılıdır. İki ölkə arasında daimi sülhün hüquqi təminatı üçün Ermənistanın konstitusiyasında Azərbaycana qarşı yer alan ərazi iddiaları birdəfəlik aradan qaldırılmalı, qanunvericilik bazası sülhün ruhuna tam uyğunlaşdırılmalıdır.

Ermənistanda son aylarda bu istiqamətdə başlayan müzakirələr və hüquqi islahat təşəbbüsləri göstərir ki, İrəvan sülh və əməkdaşlığın alternativsiz olduğunu anlamağa başlayıb. Prosesin gedişatı da göstərir ki, Prezident İlham Əliyevin müəllifi olduğu və uzaqgörənliklə addım-addım reallaşdırdığı sülh strategiyası tezliklə özünün tam hüquqi təsdiqini tapacaq. Yekun sülh müqaviləsinin imzalanması ilə Cənubi Qafqazda təhlükəsizlik, sabitlik və beynəlxalq hüquqa söykənən yeni dövr başlayacaq.

*Nəsib MƏHƏMMƏLİYEV,*
*Milli Məclisin deputatı*

# Sülh prosesində tarixi mərhələ



## Vaşinqton Zirvəsindən bir il sonra: Cənubi Qafqazın yeni geosiyasi nizamı və Azərbaycanın strateji liderliyi

**Tarix elə hadisələr yaradır ki, onların həqiqi siyasi mahiyyəti yalnız zaman keçdikdən sonra tam aydın görünür. Müasirləri üçün adi diplomatik görüş təsiri bağışlayan bəzi hadisələr sonradan bütöv regionların taleyini dəyişən dönüş nöqtələri kimi qiymətləndirilir. 2025-ci il avqustun 8-də ABŞ-nin paytaxtı Vaşinqton şəhərində keçirilən Azərbaycan-ABŞ-Ermənistan liderlərinin görüşü də artıq belə hadisələr sırasında yer alır.**

**Milli Məclisin deputatı Pərvin KƏRİMZADƏ** qəzetimizə açıqlamasında deyib ki, həmin tarixi görüşün birinci ildönümündə ötən bir ilə nəzər saldıqda Ağ Evdə qəbul olunan qərarların təkcə Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşmasına xidmət edən diplomatik addım olmadığı aydın görünür. Bu görüş bütövlükdə Cənubi Qafqazın geosiyasi arxitekturasını dəyişən, regional təhlükəsizlik sisteminə yeni məzmun gətirən və Azərbaycanın beynəlxalq mövqeyini daha da gücləndirən mühüm siyasi hadisə oldu. "Prezident İlham Əliyevin Vaşinqtonda Azərbaycan mediasına verdiyi müsahibədə söylədiyi fikirlər həmin günün mahiyyətini dəqiq ifadə edirdi: "Mən avqustun 8-ni dövlətlərarası münasibətlərimizdə tarixi gün hesab edirəm və bu da bütün regiona çox müsbət təsir göstərəcək". Vaşinqton Zirvəsinin əhəmiyyətini yalnız həmin gün imzalanan sənədlərlə məhdudlaşdırmaq düzgün olmazdı. Əslində, bu görüş son beş ildə Azərbaycanın həyata keçirdiyi ardıcıl dövlət siyasətinin məntiqi nəticəsi idi. 2020-ci ilin Vətən müharibəsi regionun hərbi-siyasi xəritəsini dəyişdirdi. 2023-cü ildə Azərbaycanın dövlət suverenliyinin bütün ərazisində tam bərpa olunması isə yeni hüquqi reallıq yaratdı. Vaşinqton görüşü həmin reallığın beynəlxalq siyasi müstəvidə qəbul edilməsinin növbəti mühüm mərhələsi oldu. Uzun illər beynəlxalq vasitəçilik institutlarının həll edə bilmədiyi məsələni Azərbaycan öz siyasi iradəsi, hərbi gücü və beynəlxalq hüquqa əsaslanan mövqeyi ilə həll etdi. Bunun nəticəsində artıq regionun gündəliyini status-kvo deyil, sülh gündəliyi müəyyənləşdirir. Məhz buna görə Vaşinqtonda paraflanan "Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis edilməsi haqqında Saziş" layihəsi sıradan diplomatik sənəd kimi deyil, yeni regional reallığın hüquqi əsaslarından biri kimi qiymətləndirilməlidir", - deyə o əlavə edib.

Deputat qeyd edib ki, müasir beynəlxalq münasibətlər tarixində qalib dövlətlərin əksəriyyəti hərbi üstünlüyü siyasi təzyiq vasitəsinə çevirməyə çalışıblar. Azərbaycanın fərqi isə ondadır ki, ölkəmiz qələbədən dərhal sonra region üçün əməkdaşlıq modelini təklif etdi. Prezident İlham Əliyev hələ müharibədən sonrakı ilk aylardan etibarən dəfələrlə bəyan etmişdi ki, Cənubi Qafqazda davamlı sabitlik yalnız qarşılıqlı əməkdaşlıq və kommunikasiyaların açılması yolu ilə mümkündür. Vaşinqton Zirvəsi həmin siyasətin beynəlxalq dəstək qazandığını nümayiş etdirdi. Birgə Bəyannamənin imzalanması, sülh sazişinin paraflanması, ATƏT-in Minsk qrupu və əlaqədar mexanizmlərin fəaliyyətinin başa çatdırılması istiqamətində atılan addımlar göstərdi ki, artıq beynəlxalq ictimaiyyət də regionda yaranmış yeni siyasi reallığı qəbul edir. Bu baxımdan Vaşinqton görüşü yeni regional təhlükəsizlik modelinin başlanğıcı oldu.



P.Kərimzadə bildirib ki, son illərin hadisələri Cənubi Qafqazda geosiyasi təşəbbüsün artıq Azərbaycana məxsus olduğunu göstərdi: "Uzun illər region kənar güclərin rəqabət meydanı kimi təqdim olunurdu. Müxtəlif beynəlxalq platformalar regionun gələcəyi barədə qərarlar qəbul etməyə çalışırdı. Lakin postmüharibə dövründə vəziyyət tamamilə dəyişdi. Bu gün regional gündəliyi müəyyən edən əsas dövlət Azərbaycandır. Prezident İlham Əliyevin həyata keçirdiyi müstəqil, praqmatik və balanslaşdırılmış xarici siyasət nəticəsində Azərbaycan həm Qərb, həm türk dünyası, həm islam aləmi, həm də digər beynəlxalq tərəfdaşlarla etibarlı münasibətlər qurmağa nail olub. Vaşinqton görüşü bu siyasətin beynəlxalq səviyyədə yüksək qiymətləndirildiyini bir daha təsdiqlədi".

Deputat qeyd edib ki, ABŞ Prezidenti Donald Trampın vasitəçiliyi ilə keçirilən görüşdə əldə olunan razılaşmalar Azərbaycanın artıq təkcə Avropanın enerji təhlükəsizliyinin təminatçısı deyil, həm də regional sabitliyin əsas dayaqlarından biri kimi qəbul edildiyini təsdiqləyir. Rəsmi Bakı heç vaxt bölgədə yeni qarşıdurma modeli formalaşdırmağa çalışmayıb. Əksinə, məqsəd müharibənin nəticələrini davamlı sülhə çevirmək olub. Vaşinqtonda əldə olunan razılaşmalar da məhz bu məqsədə xidmət edir.

P.Kərimzadə vurğulayıb ki, Vaşinqton Zirvəsinin ən mühüm nəticələrindən biri də Azərbaycan ilə Amerika Birləşmiş Ştatları arasında münasibətlərin mahiyyət etibarilə yeni mərhələyə qədəm qoyması oldu. İki ölkə prezidentlərinin iştirakı ilə "Azərbaycan Respublikası ilə Amerika Birləşmiş Ştatları arasında Strateji Tərəfdaşlıq Xartiyasının hazırlanması məqsədilə Strateji İşçi Qrupunun yaradılması haqqında Anlaşma Memorandumu"nun imzalanması münasibətlərin gələcək inkişaf konturlarını müəyyənləşdirdi. Bu memorandum göstərdi ki, Vaşinqton Azərbaycanı artıq təkcə etibarlı enerji tərəfdaşı kimi deyil, həm də Cənubi Qafqazda təhlükəsizliyin, iqtisadi inteqrasiyanın və beynəlxalq nəqliyyat-kommunikasiya layihələrinin aparıcı iştirakçısı kimi qiymətləndirir. "Prezident İlham Əliyev Vaşinqtonda Azərbaycan mediasına müsahibəsində bu məqamı xüsusi vurğulayaraq demişdi: "ABŞ və Azərbaycan arasındakı ikitərəfli münasibətlər yeni pilləyə qalxır və bizim strateji tərəfdaşlığımız artıq başlayır. Azərbaycan üçün bu, tarixi nailiyyətdir". Bu fikir, əslində, Azərbaycanın son illərdə həyata keçirdiyi balanslaşdırılmış xarici siyasətin məntiqi nəticəsini ifadə edir. Çoxqütblü beynəlxalq münasibətlər sistemində milli maraqları əsas götürən, müxtəlif güc mərkəzləri ilə qarşılıqlı hörmət və bərabərhüquqlu əməkdaşlıq prinsipləri əsasında əlaqələr quran Azərbaycan etibarlı tərəfdaş kimi mövqeyini daha da möhkəmləndirib. Təsadüfi deyil ki, dövlət başçısı strateji tərəfdaşlığın yalnız siyasi dialoqdan ibarət olmadığını, onun ticarət, nəqliyyat, süni intellekt, rəqəmsal iqtisadiyyat, müdafiə sənayesi, terrorizmlə mübarizə və digər mühüm istiqamətləri də əhatə edəcəyini xüsusi bildirmişdir. Bu isə onu göstərir ki, Vaşinqton Zirvəsi iki ölkə münasibətlərinə uzunmüddətli strateji məzmun qazandırıb", - deyə o bildirib.

Deputat deyib ki, Vaşinqton görüşünün ən mühüm geoiqtisadi nəticələrindən biri regional kommunikasiyaların açılması istiqamətində əldə olunan razılaşmalardır. Tarix göstərir ki, böyük dövlətlərin iqtisadi qüdrəti əksər hallarda onların nəqliyyat marşrutlarına nəzarət imkanları ilə müəyyən olunub. Böyük İpək yolu, Süveyş kanalı və Panama kanalı bunun ən bariz nümunələridir. XXI əsrdə isə Avropa ilə Asiyanı birləşdirən Orta dəhliz qlobal iqtisadiyyatın yeni inkişaf oxlarından birinə çevrilməkdədir. Azərbaycan artıq bu marşrutun əsas halqasıdır. Bakı-Tbilisi-Qars dəmir yolu, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı, "Şərq-Qərb" və "Şimal-Cənub" nəqliyyat dəhlizləri ölkəmizin tranzit imkanlarını əhəmiyyətli dərəcədə artırıb. Vaşinqtonda əldə olunan razılaşmalar isə bu potensialın daha da genişlənməsinə xidmət edir. Bu baxımdan regional kommunikasiyaların açılması yalnız Azərbaycanın deyil, bütövlükdə Cənubi Qafqazın iqtisadi inkişafına, investisiya mühitinin yaxşılaşmasına və yeni əməkdaşlıq formatlarının yaranmasına təkan verəcək.

O bildirib ki, Azərbaycanın təşəbbüsü ilə irəli sürülən sülh gündəliyi regional təhlükəsizliyin artıq hərbi qarşıdurma üzərində deyil, iqtisadi əlaqələr, nəqliyyat əlaqələri və siyasi dialoq üzərində qurula biləcəyini göstərir: "Prezident İlham Əliyevin Vaşinqtonda səsləndirdiyi fikir də məhz bu yanaşmanı əks etdirir: "Bu gün biz Cənubi Qafqazda sülhü bərqərar edirik. Bu, nəinki bizim bölgəmiz, eyni zamanda bütün dünya üçün böyük bir imkandır". Bu bəyanat təkcə siyasi mesaj deyil, Azərbaycanın postmünaqişə dövrünə baxışının konseptual ifadəsidir. Vaşinqton Zirvəsindən ötən bir il ərzində baş verən proseslər göstərdi ki, həmin görüş təsadüfi diplomatik hadisə olmayıb. Əksinə, o, son illərdə formalaşmış yeni regional reallığın beynəlxalq səviyyədə qəbul edilməsində mühüm mərhələ kimi çıxış edib. Artıq Cənubi Qafqaz münaqişə məkanı kimi deyil, enerji təhlükəsizliyi, nəqliyyat-kommunikasiya, rəqəmsal transformasiya və iqtisadi əməkdaşlıq imkanları ilə seçilən strateji region kimi formalaşır. Bu dəyişikliklərin mərkəzində isə Azərbaycan dayanır. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasət nəticəsində ölkəmiz yalnız hərbi Zəfər qazanan dövlət kimi deyil, həm də həmin zəfəri davamlı sülh, regional əməkdaşlıq və beynəlxalq tərəfdaşlığa çevirməyi bacaran məsuliyyətli siyasi aktor kimi qəbul olunur. Vaşinqton görüşünün birinci ildönümündə Prezident İlham Əliyevin həmin tarixi günlə bağlı söylədiyi daha bir fikir xüsusi diqqət çəkir: "Bugünkü gün o cümlədən buna görə tarixi gün sayıla bilər"".

Deputat qeyd edib ki, 8 avqust 2025-ci il Cənubi Qafqazın yeni geosiyasi tarixinin başlanğıc nöqtələrindən biridir. Həmin gün Vaşinqtonda qəbul edilən qərarlar təkcə iki dövlət arasında münasibətlərin normallaşmasına xidmət etmədi, regionun gələcək inkişaf modelini, təhlükəsizlik arxitekturasını və geoiqtisadi perspektivlərini müəyyən etdi. Tarix böyük dövlətlərin yalnız qazandıqları qələbələri deyil, həmin qələbələri uzunmüddətli siyasi nəticələrə çevirmək bacarığını da qiymətləndirir. Azərbaycan son illərdə məhz bu keyfiyyəti nümayiş etdirib. Hərbi zəfər diplomatik uğurla tamamlanıb, diplomatik uğur isə yeni regional əməkdaşlıq modelinin formalaşmasına zəmin yaradıb. "Vaşinqton Zirvəsindən ötən bir il göstərir ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən strateji kurs Azərbaycanın beynəlxalq mövqeyini daha da möhkəmləndirib. Bu gün ölkəmiz Cənubi Qafqazın siyasi gündəliyini müəyyən edən, regional əməkdaşlıq platformalarını təşviq edən və Avrasiyanın yeni geoiqtisadi xəritəsinin formalaşmasında aparıcı rol oynayan dövlət kimi çıxış edir. Məhz buna görə 8 avqust 2025-ci il yalnız diplomatik təqvimdə qeyd olunan tarix deyil, Azərbaycanın yaratdığı yeni geosiyasi reallığın beynəlxalq səviyyədə təsdiqləndiyi, Cənubi Qafqazın gələcəyinə istiqamət verən, strateji qərarların qəbul olunduğu gün kimi müasir siyasi tarixdə öz layiqli yerini tutub.

*Əsmər QARDAŞXANOVA, "Azərbaycan"*

## Regionun siyasi tarixində mühüm dönüş nöqtəsi

**Avqustun 8-i Azərbaycan diplomatiyası, bütövlükdə, Cənubi Qafqazın siyasi tarixində mühüm dönüş nöqtələrindən biri kimi qiymətləndirilməlidir. Prezident İlham Əliyevin ABŞ-yə tarixi səfəri və Vaşinqtonda Azərbaycan ilə Ermənistan arasında Birgə Bəyannamənin imzalanması regionda uzun illər davam edən qarşıdurmanın aradan qaldırılması istiqamətində yeni mərhələnin əsasını qoydu.**

**Milli Məclisin deputatı Sevinc HÜSEYNOVA** qəzetimizə açıqlamasında deyib ki, əldə olunan nəticələr təsadüfi deyil, Prezident İlham Əliyevin illərlə ardıcıl şəkildə həyata keçirdiyi uzaqgörən xarici siyasətin və milli maraqlara əsaslanan diplomatiyanın məntiqi nəticəsidir. Azərbaycan hələ Vətən müharibəsindən dərhal sonra sülh gündəliyini irəli sürən ilk dövlət oldu. Məhz Prezident İlham Əliyevin təşəbbüsü ilə Azərbaycan Ermənistanla münasibətlərin normallaşdırılması üçün beynəlxalq hüquqa söykənən beş əsas prinsipi irəli sürdü. "Bu prinsiplər dövlətlərin suverenliyinə və ərazi bütövlüyünə qarşılıqlı hörmət, sərhədlərin toxunulmazlığı, bir-birinə qarşı ərazi iddialarından imtina, güc tətbiq etməmək və kommunikasiyaların açılması kimi fundamental müddəaları özündə ehtiva etdi. Bu gün beynəlxalq ictimaiyyət də qəbul edir ki, Cənubi Qafqazda sülh prosesinin müəllifi və əsas təşəbbüskarı Azərbaycandır. Vaşinqtonda keçirilən görüşlər və imzalanan sənədlər də məhz bu konsepsiyanın davamı oldu. İmzalanmış sənədlər tərəflər arasında etimadın möhkəmləndirilməsi, sülh müqaviləsinin yekunlaşdırılması, regional əməkdaşlığın genişləndirilməsi və iqtisadi inteqrasiyanın dərinləşdirilməsi baxımından mühüm siyasi və hüquqi baza formalaşdırdı", - deyə o əlavə edib.



Deputat qeyd edib ki, bu prosesdə ABŞ Prezidenti Donald Trampın vasitəçilik səyləri də xüsusi qeyd olunmalıdır. Onun tərəfləri bir masa arxasında toplamaq istiqamətində atdığı addımlar və Prezident İlham Əliyevlə qarşılıqlı məktublaşmaları göstərirdi ki, Vaşinqton regionda davamlı sülhün əldə olunmasını dəstəkləyən əsas ölkədir. Prezident İlham Əliyevin məktublarında Azərbaycanın sülhə sadiqliyi, regionun inkişafı naminə əməkdaşlığa açıq olduğu, lakin milli maraqlar və dövlət suverenliyi məsələsində prinsipial mövqeyindən geri çəkilməyəcəyi aydın şəkildə ifadə olunurdu.

S.Hüseynova bildirib ki, bu gün artıq Azərbaycan-Ermənistan münasibətlərinin normallaşmasının təkcə iki dövlət üçün deyil, bütövlükdə Cənubi Qafqaz üçün yeni iqtisadi, siyasi və təhlükəsizlik imkanları yaratdığı aydın görünür: "Davamlı sülh regionda nəqliyyat-kommunikasiya layihələrinin genişlənməsinə, investisiya mühitinin yaxşılaşmasına, yeni iqtisadi əməkdaşlıq formatlarının yaranmasına və xalqlar arasında etimadın bərpasına xidmət edir. Bu baxımdan TRIPP layihəsi də xüsusi əhəmiyyət daşıyır. Layihə region ölkələri arasında qarşılıqlı əlaqələrin genişləndirilməsi, yeni iqtisadi imkanların formalaşdırılması və Cənubi Qafqazın qlobal nəqliyyat-logistika sistemində rolunun daha da gücləndirilməsi baxımından strateji əhəmiyyətə malikdir. Belə təşəbbüslər bölgənin qarşıdurma deyil, əməkdaşlıq və inkişaf məkanına çevrilməsinə xidmət edir".

Son beş ildə regionda yaranmış yeni geosiyasi reallıqların müəllifinin məhz Prezident İlham Əliyev olduğunu vurğulayan deputat deyib ki, Azərbaycanın hərbi, siyasi və diplomatik qələbəsi beynəlxalq hüququn bərpasını təmin edib və yeni status-kvo formalaşdırıb. Bu status-kvo artıq işğala deyil, beynəlxalq hüquqa, dövlətlərin suverenliyinə və qarşılıqlı əməkdaşlığa əsaslanır.

"Prezident İlham Əliyevin həyata keçirdiyi siyasət sübut etdi ki, güclü dövlət, qətiyyətli liderlik və prinsipial diplomatiya sülhə aparan ən etibarlı yoldur. Bu gün Azərbaycan təkcə regionun qalib dövləti deyil, həm də Cənubi Qafqazda sülh gündəliyinin müəllifi, yeni əməkdaşlıq modelinin təşəbbüskarı və sabitliyin əsas təminatçısı kimi çıxış edir. Məhz buna görə də 8 avqust tarixi yalnız bir diplomatik hadisənin ildönümü deyil, həm də regionun gələcəyini müəyyən edən yeni siyasi mərhələnin başlanğıcı kimi qiymətləndirilməlidir", - deyə S.Hüseynova bildirib.

*Ə.QABİLQIZI, "Azərbaycan"*

## Orta dəhlizin strateji elementinə çevrilən Zəngəzur dəhlizi: birillik Vaşinqton diplomatiyasının uğurları

Azərbaycan Prezidenti İlham Əliyevin ABŞ-yə səfərinin və Vaşinqtonda Ermənistanın Baş naziri Nikol Paşinyanla birlikdə sülh prosesi üzrə mühüm sənədlərin imzalanmasının bir ili tamam olur. 2025-ci il avqustun 8-də Ağ Evdə keçirilən görüş Cənubi Qafqazda uzun illər davam edən münaqişənin arxada qalması istiqamətində ən əhəmiyyətli diplomatik hadisələrdən biri kimi qiymətləndirilir.

AZƏRTAC xəbər verir ki, səfərin əsas nəticəsi Azərbaycan və Ermənistan xarici işlər nazirləri tərəfindən dövlətlərarası münasibətlərin qurulmasına dair sülh sazişinin razılaşdırılmış mətninin paraflanması və liderlərin Birgə Bəyannamə imzalaması olub. Sənəddə tərəflər sülh sazişinin imzalanması və ratifikasiyası istiqamətində işi davam etdirmək, bir-birinin ərazi bütövlüyünü tanımaq və regionda uzunmüddətli sabitliyə sadiq olduqlarını bəyan etdilər.

### Səfərin bir sıra məsələlər baxımından tarixi əhəmiyyəti

Prezident İlham Əliyevin Vaşinqtona səfəri Azərbaycan-Ermənistan münasibətlərində hərbi qarşıdurmadan siyasi dialoqa keçidin simvolu oldu. Beləliklə, ABŞ Cənubi Qafqazda sülh prosesinin təşviqində daha fəal vasitəçi kimi çıxış etdi. Bununla da regional nəqliyyat və iqtisadi əməkdaşlıq perspektivləri yenidən gündəmə gəldi. Həmçinin münaqişədən sonrakı dövrdə diplomatik münasibətlərin normallaşdırılması üçün yeni beynəlxalq siyasi platforma formalaşdı.

Bir il ərzində proses müxtəlif mərhələlərdən keçsə də, Vaşinqton görüşü regionun siyasi tarixində dönüş nöqtəsi kimi qalır. Analitiklərin qiymətləndirməsinə görə, həmin görüş təkcə Azərbaycan-Ermənistan münasibətlərinə deyil, həm də Cənubi Qafqazın geosiyasi balansına, beynəlxalq nəqliyyat marşrutlarına və böyük güclərin regiondakı roluna təsir göstərən hadisə idi.

Avqustun 8-i artıq təkcə bir diplomatik səfərin ildönümü deyil, həm də regionda davamlı sülhün qurulması istiqamətində atılmış ən mühüm siyasi addımlardan birinin xatırlandığı tarix kimi dəyərləndirilir.

### Prezident İlham Əliyevin diplomatik qələbəsi

ABŞ səfəri Prezident İlham Əliyevin əldə etdiyi mühüm diplomatik qələbə kimi qiymətləndirilir. Məsələnin mahiyyəti ondan ibarətdir ki, dövlət başçısının irəli sürdüyü Zəngəzur dəhlizi təşəbbüsü rəsmi Vaşinqton tərəfindən nəinki dəstəkləndi, həm də bu layihəyə sərmayə yatırılmasına nail olundu. Prezident İlham Əliyev Amerikanın diqqətini Cənubi Qafqaza cəlb etməklə qlobal ticarətə geniş yollar təqdim etdi. ABŞ Prezidenti bu layihənin qlobal xarakter daşıdığını düzgün qiymətləndirərək, onun reallaşması üçün hər cür köməklik göstərəcəyini bildirərək adının simvolik olaraq "Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu" (TRIPP) adlandırılmasını istədi.




ABŞ Dövlət Departamentinin Avropa və Avrasiya məsələləri üzrə keçmiş köməkçisi James O'Brien bildirib ki, Mərkəzi Asiya ölkələrinin Rusiya və Çindən kənar alternativ ixrac marşrutlarına ehtiyacı var və Azərbaycanın bu baxımdan strateji əhəmiyyəti böyükdür. Bu yanaşma Zəngəzur istiqamətinin də daha geniş "Şərq-Qərb" bağlantısının bir hissəsi kimi qiymətləndirildiyini göstərir. Bu dəhliz təkcə Asiya ilə Avropa arasında nəqliyyat əlaqəsi yaratmaqla kifayətlənmir, həmçinin geosiyasi əhəmiyyətə malikdir.

Prezident İlham Əliyev IV Şuşa Qlobal Media Forumunda çıxış edərək bu məsələyə dair belə fikir bildirdi: "Biz kifayət qədər uzun müddət ərzində bağlantılar üzərində işləmişik. Biz bəlkə də 10 ildən artıqdır çalışdıq, coğrafi mövqeyimizin üstünlüklərindən istifadə edərək, onları çoxtərəfli əməkdaşlıq üçün real platformaya çevirək. Müxtəlif meyarlar var idi ki, bizə beynəlxalq daşımalar məkanına çevrilmək imkanını yaradırdı və ya buna mane olurdular. İlk olaraq, bu, çatışmayan fiziki infrastrukturla bağlı idi və biz onu yaratmalı idik və yaratdıq. İkincisi, qonşularla qarşılıqlı əlaqələr olmadan siz heç zaman tranzit ölkəyə çevrilməyəcəksiniz. Əgər qonşularınızla münasibətləriniz pisdirsə, bu o deməkdir ki, heç nə alınmayacaq..."

Prezident İlham Əliyev Azərbaycanın logistika mərkəzinə çevrilməsi üçün Vaşinqton deklarasiyasına uyğun addımlar ataraq rəsmi Bakının siyasi niyyətinin yalnız sülh və iqtisadi inkişafdan ibarət olduğunu bütün dünyaya göstərdi. Məhz Azərbaycan Prezidentinin icazəsi ilə Ermənistana ölkəmiz üzərindən yükdaşımalara icazə verildi. Artıq Ermənistan Rusiya və Qazaxıstan ilə yanacaq, taxıl, kimyəvi gübrələrin ticarətini aparır. Digər tərəfdən Azərbaycanda geniş infrastruktur layihələri həyata keçirilir ki, Zəngəzur dəhlizi tam gücü ilə fəaliyyət göstərsin.

### "Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu" (TRIPP) və ya Zəngəzur dəhlizi

Dəhliz ilk növbədə Naxçıvan Muxtar Respublikasının Azərbaycan ilə nəqliyyat əlaqəsini təmin edəcək ki, bunun da mühüm geosiyasi əhəmiyyəti var. Naxçıvan uzun illərin blokadasından çıxaraq nəinki Azərbaycana, eləcə də dünya iqtisadiyyatına inteqrasiya olunmaq imkanı qazanacaq. Azərbaycanın iqtisadi imkanları öz ərazisində nəzərdə tutulan işləri yekunlaşdırmaq imkanı verir. Əhmədbəyli-Horadiz-Mincivan-Ağbənd avtomobil yolu, Araz çayı üzərində Ağbənd-Kəlalə körpüsünün inşası yekunlaşmaq üzrədir. Bu istiqamətdə həyata keçirilən işlərin 95 faizi tamamlanıb. Bakı limanının yükaşırma imkanı yaxın zamanlarda 25 milyon tona çatdırılacaq. Bütün bunlar təsadüfən baş verməyib.

ABŞ-nin Mərkəzi Asiya respublikaları ilə son illər müşahidə olunan yaxın iqtisadi əməkdaşlıq əlaqələri də təsadüfi xarakter daşımır. Bu əlaqələrin arxasında ABŞ-nin iqtisadi maraqları dayanır. Bildiyimiz kimi, dünya təmiz enerjiyə transformasiya olunur. Yeni texnologiyaların inkişafı üçün nadir yer metallarının istifadəsi zəruridir. Bunlardan elektrik nəqliyyat vasitələrinin, smartfonların, külək turbinlərinin, Günəş batareyalarının, hərbi texnikanın və müxtəlif texniki avadanlıqların istehsalında istifadə olunur. Mərkəzi Asiya respublikalarında uran, litium, tulium, serium və digər nadir yer metallarının qaynaqları var. Texnoloji cəhətdən inkişaf etmiş ABŞ gələcəkdə də hegemonluğunu qoruyub saxlamaq üçün bunlara ehtiyac duyur. Bu baxımdan ABŞ Zəngəzur dəhlizinin fəaliyyəti üçün həm sərmayə yatıracaq, həm də dəhlizin təhlükəsizliyini təmin edəcək.

ABŞ Dövlət Departamentinin 402 milyon dollardan ibarət "TRIPP+ Enterprise" Fondu yaratması və Zəngəzur dəhlizinin 42 kilometrlik məsafəsinin iqtisadi-texniki əsaslandırmasını aparması da təsadüfi xarakter daşıyan məsələ deyil.

Hazırda Avrasiya məkanında davam edən müharibələr Çin ilə Avropa arasındakı ticarət əlaqələrinin məhz Orta dəhliz üzərindən aparılmasını zərurətə çevirib. Rusiya-Ukrayna müharibəsi şimaldan, İran-ABŞ müharibəsi isə cənubdan Avropaya gedən yolları təhlükəli vəziyyətə salıb. Orta ləhlizdə iştirak edən Mərkəzi Asiya respublikaları və Azərbaycanın yükdaşıma həcmini 2030-cu ilə kimi 11 milyon tona çatdırmaq planları təsadüfi xarakter daşımır. Prezident İlham Əliyevin Zəngəzur dəhlizi təşəbbüsü təkcə ABŞ yox, Avropa İttifaqının "Global Gateway" təşəbbüsü çərçivəsində də dəstəklənir.

Fransanın "Expertise France" və Almaniyanın GIZ şirkətləri Orta dəhlizin inkişafına fəal şəkildə kömək edir, logistikanın rəqəmsallaşdırılmasına və yüklərin tranzit müddətinin azaldılmasına xüsusi diqqət yetirirlər.

Ötən ilin avqustunda Vaşinqtonda keçirilən görüşdə Prezident İlham Əliyevin əldə etdiyi diplomatik qələbə Azərbaycana yalnız iqtisadi dividend deyil, həmçinin siyasi zəmanət də qazandırıb.

# Sülh prosesində tarixi mərhələ

## Tarixi Zəfərdən mütləq sülhə

### Vaşinqton Zirvəsində regional sabitliyin, əməkdaşlığın və tərəqqinin təməli qoyuldu



**8 avqust Vaşinqton Zirvəsi Cənubi Qafqazda onilliklər boyu davam edən, regionun inkişafını dayandıran və beynəlxalq təhlükəsizlik sistemini sınağa çəkən münaqişəni de-fakto başa çatdıran tarixi dönüş nöqtəsidir. Ötən il əldə edilən bu diplomatik zəfər Azərbaycanın Vətən müharibəsində və lokal antiterror tədbirlərində qazandığı hərbi zəfərin qlobal müstəvidə hüquqi-siyasi təsdiqi oldu. Ölkəmiz bununla həm də müasir beynəlxalq münasibətlər sisteminə yeni bir sülh modeli təqdim etdi. BMT Təhlükəsizlik Şurasının kağız üzərində qalan qətnamələrini öz gücü ilə icra edən Bakı sonradan ədalətli və davamlı sülh gündəliyi irəli sürərək geosiyasi reallıqları kökündən dəyişdi.**

Prezident İlham Əliyevin çıxışlarının birində bəyan etdiyi kimi: "Əgər sülh yolu ilə həll üçün bütün ümid itir, ancaq həqiqət və ədalət, beynəlxalq hüquq sizin tərəfinizdədirsə, sülhə nail olmaq üçün gücdən istifadə etmək zəruridir. Məhz belə də oldu. Biz əvvəlcə güc tətbiq etməklə, daha sonra isə siyasi yollarla Ermənistanla sülhə nail olduq. Bu da müasir tarixdə, - müasir dedikdə son onillikləri nəzərdə tuturam, - nadir bir təcrübədir - ölkə özü güc tətbiq edərək suverenliyini və ərazi bütövlüyünü bərpa etdi".

### Ədalətin bərpası

1993-cü ildə BMT Təhlükəsizlik Şurası tərəfindən Azərbaycan torpaqlarının işğaldan azad edilməsini, suverenliyimizin və ərazi bütövlüyümüzün tanınmasını tələb edən 822, 853, 874 və 884 saylı 4 məlum qətnamə qəbul edildi. Lakin bu beynəlxalq sənədlər tam 27 il boyunca kağız üzərində qalaraq icra olunmadı. Qlobal təhlükəsizlik sisteminin və beynəlxalq hüququn aliliyini təmin etməli olan institutların bu fəaliyyətsizliyi ikili standartların və beynəlxalq ədalətsizliyin ən bariz nümunəsinə çevrildi.

Eyni zamanda heç bir hüquqi və mənəvi əsası olmayan, işğala məruz qalan tərəfi cəzalandırmağa yönəlmiş ABŞ Konqresinin Azadlığa Dəstək Aktına 907-ci düzəlişi qəbul etməsi, eləcə də münaqişənin həlli üçün mandata sahib olan ATƏT-in Minsk qrupunun həmsədrlərinin yarıtmaz, qərəzli və status-kvonu dondurmağa hesablanmış fəaliyyəti də bu ədalətsizliyin tərkib hissəsi idi. Əsas məqsəd Azərbaycanı torpaqlarının işğalı reallığı ilə barışdırmaq, işğalçıya isə beynəlxalq dəstək imkanı yaratmaq idi.

Lakin bu ağır geosiyasi şəraitə və xarici təzyiqlərə baxmayaraq, Ulu Öndər Heydər Əliyevin siyasi kursunu uğurla və qətiyyətlə davam etdirən Prezident İlham Əliyev müstəqil, milli maraqlara söykənən hərtərəfli inkişaf strategiyası həyata keçirdi. Dövlətimizin başçısı güclü iqtisadiyyat qurdu, ordumuzu müasir standartlara uyğunlaşdırdı, uğurlu diplomatiyası ilə beynəlxalq aləmdə ölkəmizin mövqelərini möhkəmləndirdi və daxili həmrəyliyi ən yüksək səviyyəyə qaldırdı. Bu uzaqgörən siyasi xətt tarixi zəfərlərimizin təməlini qoydu.

2020-ci il 44 günlük Vətən müharibəsində Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusu döyüş meydanında misilsiz qəhrəmanlıq göstərərək düşməni diz çökdürdü. Bununla da 30 illik işğala son qoyuldu, tarixi ədalət və BMT TŞ-nin kağız üzərində qalmış qətnamələri Azərbaycanın öz gücü ilə icra edilərək ərazi bütövlüyümüz bərpa olundu.

19-20 sentyabr 2023-cü ildə həyata keçirilən lokal antiterror tədbirləri nəticəsində Qarabağda separatizmə son qoyuldu. Cəmi bir gün ərzində Azərbaycan özünün bütün suveren ərazilərində dövlət bayrağını ucaltdı və konstitusiya quruluşunu tam bərpa etdi.

Son 80 illik müasir hərb və diplomatiya tarixində Azərbaycan kimi öz gücünə, prinsipiallığına və hərbi-siyasi iradəsinə söykənərək tam, qəti və mütləq qələbə qazanan ikinci bir ölkə olmayıb. Bu zəfər Azərbaycan xalqının yenilməzliyini və Prezident İlham Əliyevin liderlik bacarığını bütün dünyaya nümayiş etdirdi.

### Diplomatik qələbə

Azərbaycan müharibədən sonra məğlub tərəfə revanşizm deyil, beynəlxalq hüquqa əsaslanan sülh müqaviləsi təklif edən nadir dövlətlərdən biri kimi tarixdə yer aldı.

Azərbaycanın liderliyi ilə irəlilədilən normallaşma gündəliyi ötən il 8 avqust Vaşinqton sammitində öz məntiqi nəticəsinə çatdı. ABŞ Prezidenti Donald Trampın evsahibliyi və iştirakı ilə Prezident İlham Əliyevlə Ermənistanın Baş naziri Nikol Paşinyan arasında baş tutan Zirvə görüşü diplomatik zəfər kimi yaddaşlara həkk olundu.

"Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis edilməsi haqqında Saziş"in mətni rəsmən paraflandı. Azərbaycan və Ermənistan liderləri tərəfindən, habelə şahid qismində ABŞ Prezidenti tərəfindən imzalanmış Birgə Bəyannamədə Azərbaycan və Ermənistan münaqişənin artıq keçmişdə qaldığını təsdiqlədi. Bununla iki ölkə arasında beynəlxalq sərhədlərin toxunulmazlığı və ərazi əldə olunması üçün güc tətbiqetmənin yolverilməzliyi əsasında qonşuluq münasibətlərinin qurulması üçün şərtlərin yarandığı bəyan edildi.

Sözügedən tarixdə əldə olunan mühüm nailiyyətlərdən biri də iki ölkənin xarici işlər nazirlərinin birgə müraciəti əsasında ötən il dekabrın 1-də ATƏT-in Minsk prosesinin və onunla bağlı strukturlarının rəsmən ləğv edilməsi oldu. Beləliklə, vasitəçilik adı altında prosesi uzadan mexanizmlər tarixdən silindi.

Ağ Evdə Azərbaycanın əsas hissəsini Naxçıvan Muxtar Respublikası ilə maneəsiz bağlayacaq Zəngəzur dəhlizinin (TRIPP) açılması üzrə tarixi razılıq əldə olundu. Bu layihə Orta dəhlizin ən vacib hissəsinə çevrilərək Avrasiya nəqliyyat xəritəsini yenidən tərtib edir.

Məhz Vaşinqton Zirvəsindən sonra Bakı Ermənistana tətbiq edilən tranzit məhdudiyyətlərini aradan qaldırdı, eyni zamanda vətəndaş cəmiyyəti nümayəndələrinin qarşılıqlı səfərləri ilə cəmiyyətlərin sülhə hazırlanması prosesinə start verildi.

### Beynəlxalq etimadın təzahürü

Azərbaycanın sülh strategiyası lokal çərçivədən çıxaraq qlobal təhlükəsizlik arxitekturasının tərkib hissəsinə çevrilib. Ümumdünya İqtisadi Forumu çərçivəsində 2026-cı il yanvarın 22-də Davosda "Sülh Şurasının Nizamnaməsi" ("Board of Peace Charter") sənədinin imzalanma mərasimi keçirilib. Prezident İlham Əliyev, tədbirdə iştirak edən digər dövlət və hökumət başçıları "Sülh Şurasının Nizamnaməsi" ("Board of Peace Charter") sənədini imzalayıblar. Bununla da Azərbaycan Sülh Şurasının təsisçi üzvlərindən biri olub.

Bu, Bakının sülh strategiyasının qlobal əhəmiyyətini təsdiqləyir. Ölkəmizin Sülh Şurasında iştirakı həm diplomatik uğur, həm də beynəlxalq ictimaiyyətin ölkəmizin sülhə verdiyi töhfələrə olan etimadının təzahürüdür. Regional münaqişənin ədalətli həlli, suverenliyin və ərazi bütövlüyünün təmin olunması, dialoq və əməkdaşlığın təşviqi kimi vacib məsələlər də bu qəbildəndir.

Əbu-Dabidə Prezident İlham Əliyevin "Zayed İnsan Qardaşlığı Mükafatı" ilə təltif edilməsi də Azərbaycanın qlobal sülhə töhfə verən liderliyinin beynəlxalq aləmdə aldığı yüksək dəyərin təzahürüdür. Həmin mükafat regionda onilliklər boyu davam edən münaqişəyə və humanitar əzablara son qoyan "Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis edilməsi haqqında Saziş"in paraflanmasına görə verilib. Mükafatlandırma mərasimində Prezident İlham Əliyev çıxışı zamanı qeyd etdi ki, bizim nümunəmiz göstərir ki, uzunmüddətli münaqişəyə, əzablara və qarşılıqlı etimadsızlığa baxmayaraq, sülh mümkündür.

İndi ən əsas vəzifə de-fakto əldə olunmuş sülhü de-yure sülh müqaviləsinə çevirməkdir. Bunun üçün İrəvanın qarşısında duran əsas tələb bəllidir. Ermənistan öz konstitusiyasından Azərbaycana qarşı mövcud olan ərazi iddialarını rəsmən ləğv etməlidir.

Ötən ilin 8 avqust tarixində Prezident İlham Əliyev Vaşinqtonda Azərbaycanın media nümayəndələrinə müsahibəsi zamanı bu məsələ barədə qəti mövqeyini belə ifadə edib: "Təbii ki, Ermənistanın, necə deyərlər, ev tapşırıqları da var. Bildiyiniz kimi, onların konstitusiyasında Azərbaycana qarşı ərazi iddiası məsələsi imkan vermədi ki, bu gün sülh sazişi imzalansın. Amma bu dəyişikliklər ediləndən sonra artıq sülh sazişi istənilən vaxtda imzalana bilər".

Bir sözlə, Azərbaycan öz gücü və siyasi iradəsi ilə sübut etdi ki, düzgün yürüdülən siyasət sayəsində həm beynəlxalq ədaləti bərpa etmək, həm də bütün region üçün firavan sülh erasını başlatmaq mümkündür.

*Yasəmən MUSAYEVA, "Azərbaycan"*

## Qarşılıqlı etimada söykənən strateji tərəfdaşlıq

**Azərbaycan ilə Amerika Birləşmiş Ştatları arasında münasibətlər öz tarixinin ən məhsuldar dövrünü, keyfiyyətcə yeni mərhələsini yaşayır. Xüsusən, regional və qlobal reallıqların sürətlə dəyişdiyi bir dövrdə iki ölkə arasındakı əlaqələr uzunmüddətli strateji müstəviyə qədəm qoyub. Bakı və Vaşinqton arasında bu tarixi dönüşün və yeni mərhələnin təməli 2025-ci il avqustun 7-də Azərbaycan Prezidenti İlham Əliyevin Amerika Birləşmiş Ştatlarına rəsmi səfəri ilə qoyuldu.**

Avqustun 8-də Ağ Evdə keçirilən görüş və yüksəksəviyyəli danışıqlar diplomatik münasibətlərin parlaq səhifəsi kimi tarixə düşdü. Vaşinqtonda Azərbaycan liderinə göstərilən xüsusi diqqət və ehtiram iki ölkə arasındakı etimad mühitinin nə qədər yüksək olduğunu nümayiş etdirdi. Görüş zamanı ABŞ Prezidenti Donald Tramp Prezident İlham Əliyevi iradəli və güclü lider kimi xarakterizə edərək, dövlətimizin başçısının Cənubi Qafqazda sabitliyin və inkişafın təmin olunmasındakı müstəsna rolunu xüsusi vurğuladı. Liderlər arasında səmimi dialoq, hədiyyələrin təqdim olunması dövlət başçıları arasında formalaşan şəxsi etimadın və yüksək siyasi dialoqun bariz nümunəsi idi.

Tramp administrasiyasının praqmatik yanaşması Azərbaycan ilə Ermənistan arasında sülh prosesinə də müsbət töhfələr verdi. Avqustun 8-də Vaşinqton sammiti çərçivəsində ABŞ-nin iştirakı ilə Azərbaycan və Ermənistan arasında Birgə Bəyannamənin imzalanması, tarixi sülh sazişinin mətninin paraflanması, eyni zamanda Azərbaycan və ABŞ arasında Strateji Tərəfdaşlıq Xartiyasının hazırlanması məqsədilə xüsusi İşçi Qrupunun yaradılması həm Cənubi Qafqazda sabitliyin, həm də ikitərəfli münasibətlərdə inkişafın təməlini qoyan mühüm qərarlar oldu. Bu addımlar Vaşinqtonun Bakı ilə əlaqələri konkret mexanizmlər üzərindən inkişaf etdirmək əzmini aydın şəkildə göstərdi.

Tarixi səfər çərçivəsində atılan ən mühüm siyasi addımlardan biri də illər boyu ikitərəfli əlaqələrə kölgə salan 907-ci düzəlişlə bağlı verilən qərar oldu. 1992-ci ildə erməni lobbisinin təsiri nəticəsində qəbul edilən bu düzəliş mahiyyət etibarilə ədalətsiz qərar idi. Prezident Donald Trampın 907-ci düzəlişin tətbiqini dayandıran sərəncam imzalaması Vaşinqtonun Bakı ilə münasibətlərdə praqmatik mövqeyə üstünlük verdiyinin göstəricisidir.

Ağ Evdə əldə olunan razılaşmaların məntiqi davamı kimi növbəti mərhələdə keçirilən Davos görüşü, habelə Prezident Donald Trampın təşəbbüskarı olduğu Sülh Şurasına Azərbaycanın təsisçi üzv kimi dəvət edilməsi Bakının artan qlobal nüfuzunu və Vaşinqtonun Azərbaycana verdiyi strateji dəyəri bir daha təsdiqlədi. Davosdakı təmaslar liderlər səviyyəsində formalaşmış siyasi dialoqun davamlı xarakter aldığını və ikitərəfli əməkdaşlığın qlobal platformalarda da uğurla irəlilədiyini göstərdi. Prezident Donald Trampın təşəbbüskarı olduğu beynəlxalq Sülh Şurasına Azərbaycanın təsisçi üzv kimi dəvət edilməsi Bakının qlobal təhlükəsizlik və sülh quruculuğu proseslərinə verdiyi real töhfələrin beynəlxalq miqyasda etirafıdır.

Bu prosesin ən əhəmiyyətli nəticəsi ABŞ-nin vitse-prezidenti Ceyms Devid Vensin 2026-cı ilin fevral ayında Azərbaycana rəsmi səfəri və bu səfər zamanı "Azərbaycan Respublikası Hökuməti ilə Amerika Birləşmiş Ştatları Hökuməti arasında Strateji Tərəfdaşlıq Xartiyası"nın imzalanması oldu. Vensin Bakıya gəlişi Vaşinqtonun Azərbaycanın regional gücünə və qlobal roluna verdiyi yüksək dəyərin göstəricisi idi. Səfər çərçivəsində imzalanan sənədlər iki ölkə arasında təhlükəsizlik, iqtisadiyyat, energetika, nəqliyyat, rəqəmsal texnologiyalar və süni intellekt kimi strateji istiqamətlərdə uzunmüddətli fəaliyyət çərçivəsini hüquqi baxımdan təsbit etdi.

Prezident İlham Əliyev iyulun 13-də Şuşada IV Qlobal Media Forumunun açılış mərasimində Azərbaycan-ABŞ münasibətlərinin yüksək səviyyəyə çatdığını xüsusi vurğuladı: "Münasibətlər Tramp administrasiyası ilə Azərbaycan arasında əladır və biz çox şadıq ki, o əlaqələr həqiqətən strateji tərəfdaşlıq səviyyəsinə qalxıb. Ötən ilin avqust ayında Vaşinqtonda Prezident Trampla tarixi görüşüm və sonradan bu ilin yanvarında Davosdakı görüşümüz, Prezident Trampın təşəbbüskarı olduğu Sülh Şurasına Azərbaycanın təsisçi üzv kimi dəvət olunması, vitse-prezident Cey.Di.Vensin səfəri, Strateji Tərəfdaşlığın qurulması haqqında Birgə Bəyanatı vitse-prezidentlə Bakıda imzalamağımız və bir çox digər meyarlar göstərir ki, hazırda münasibətlər heç zaman görmədiyimiz zirvə səviyyəsindədir. Bu gün biz strateji tərəfdaşlıq haqqında Bəyanatın bütün müddəalarının icrası üzərində fəal şəkildə işləyirik".

Azərbaycan ABŞ üçün həm də Mərkəzi Asiyaya və türk dünyasına açılan mühüm strateji qapıdır. Xüsusilə Trans-Xəzər Nəqliyyat Marşrutunun (Orta dəhliz) inkişafı, regionlararası nəqliyyat və tranzit imkanlarının genişləndirilməsi, habelə beynəlxalq sülhün reallaşdırılması istiqamətində Bakı ilə Vaşinqtonun baxışları tamamilə üst-üstə düşür. ABŞ Avrasiya məkanında təhlükəsiz və fasiləsiz tədarük zəncirlərinin qurulmasında Azərbaycanın həlledici rolunu yüksək qiymətləndirir.

İkitərəfli əməkdaşlığın iqtisadi təməlləri də genişlənməkdədir. ABŞ-nin nəhəng texnologiya şirkətlərinin Azərbaycanda bərpaolunan enerji, rəqəmsal infrastrukturların qurulması və süni intellekt texnologiyalarının tətbiqi sahələrinə marağı əhəmiyyətli dərəcədə artıb. Qarşılıqlı investisiyaların təşviqi, ticarət dövriyyəsinin şaxələndirilməsi və birgə innovasiya layihələrinin reallaşdırılması Azərbaycanın qeyri-neft sektorunun inkişafına, eyni zamanda iki ölkə arasında biznes dairələrinin daha sıx inteqrasiyasına xidmət edir. Keçmişdə enerji və antiterror əməkdaşlığı ilə məhdudlaşan ikitərəfli gündəlik bu gün investisiyalar, rəqəmsal transformasiya, müdafiə sənayesi və yüksək texnologiyalar hesabına daha da zənginləşib.

Bütün bunlar göstərir ki, Azərbaycan-ABŞ münasibətləri qarşılıqlı etimada, dərin hörmətə və strateji maraqlara söykənən dayanıqlı modelə çevrilib. Liderlərin siyasi iradəsi, yüksəksəviyyəli səfərlər və imzalanan tarixi sənədlər iki ölkə arasındakı tərəfdaşlığın gələcəkdə daha da möhkəmlənəcəyini, regional sabitliyin əsas zəmanətlərindən biri olacağını sübut edir.

*İsmayıl QOCAYEV, "Azərbaycan"*

## ATƏT-in Minsk qrupunun ləğvi - tarixi zərurətdən yeni reallığa

**Azərbaycanın müasir tarixində mühüm hadisələrdən biri uzun illər ərzində regionda davam edən münaqişənin nəticələrinin aradan qaldırılması və yeni reallıqların formalaşmasıdır. Bu prosesdə ATƏT-in Minsk qrupunun fəaliyyəti, onun yaradılma məqsədləri ilə faktiki nəticələri arasındakı fərq, eləcə də bu strukturun fəaliyyətinə xitam verilməsi xüsusi diqqət çəkir.**

1992-ci ildə yaradılan ATƏT-in Minsk qrupu keçmiş Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə nail olmaq məqsədi daşıyırdı. Qrupun əsas vəzifəsi beynəlxalq hüququn prinsipləri əsasında münaqişənin həllinə nail olmaq, tərəflər arasında siyasi dialoqu təmin etmək və regionda davamlı sülhün bərqərar olmasına töhfə vermək idi.

Hər zaman olduğu kimi, həmin dövrdə də Azərbaycanın mövqeyi beynəlxalq hüququn prinsiplərinə əsaslanırdı. Dövlətimiz dəfələrlə bəyan edirdi ki, münaqişənin həlli ilk növbədə dövlətlərin ərazi bütövlüyünün tanınması, işğala son qoyulması və Birləşmiş Millətlər Təşkilatının (BMT) Təhlükəsizlik Şurasının qəbul etdiyi qətnamələrin yerinə yetirilməsi ilə mümkün ola bilər.

Xatırladaq ki, BMT Təhlükəsizlik Şurası 1993-cü ildə Azərbaycanın işğal olunmuş ərazilərinin azad edilməsini tələb edən dörd qətnamə qəbul etmişdir. Həmin sənədlərdə Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə hörmət prinsipi təsdiqlənirdi. Lakin sonrakı illərdə bu qətnamələrin icrası təmin edilmədi. Nəticədə regionda mövcud olan ədalətsiz vəziyyət uzun müddət davam etdi.

Minsk qrupunun fəaliyyəti göstərdi ki, o, qarşısında duran əsas vəzifələrin icrası istiqamətində gözlənilən nəticələrə nail olmaqda maraqlı deyil. Uzun illər davam edən vasitəçilik prosesinə baxmayaraq, münaqişənin həlli istiqamətində real irəliləyiş baş vermədi, BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi qətnamələrin tələbləri yerinə yetirilmədi və işğal faktı aradan qaldırılmadı.

Prezident İlham Əliyev dəfələrlə bəyan edirdi ki, Azərbaycanın ərazi bütövlüyü məsələsi heç bir halda siyasi müzakirə mövzusu ola bilməz, münaqişənin həlli üçün əsas yol Azərbaycanın ərazi bütövlüyünün bərpasıdır. Təəssüf ki, Azərbaycanın münaqişəni sülh yolu ilə həll etmək səyləri nəticəsiz qaldı. Ermənistanla aparılan danışıqlara baxmayaraq, real irəliləyiş əldə olunmadı. Minsk qrupunun vasitəçilik missiyası münaqişənin həllinə nail olmaq əvəzinə uzun müddət mövcud vəziyyətin qorunub saxlanmasına gətirib çıxardı.

Azərbaycan hesab edirdi ki, beynəlxalq vasitəçilik mexanizmi yalnız danışıqlar prosesinin davam etdirilməsi ilə məhdudlaşmamalı, konkret nəticəyə - beynəlxalq hüququn tələblərinin yerinə yetirilməsinə, işğal altında olan ərazilərin azad edilməsinə və davamlı sülhün təmin olunmasına xidmət etməlidir. Prezident İlham Əliyev iyulun 13-də "Sülhün təşviqində medianın missiyası: Həqiqətin bərpası və etimadın yenidən qurulması" mövzusunda IV Şuşa Qlobal Media Forumunun açılış mərasimində çıxışı zamanı demişdir: "Təxminən 30 il davam etmiş işğal dövründə ABŞ administrasiyaları, ATƏT-in ozamankı Minsk qrupunun digər həmsədrləri ilə birlikdə, BMT Təhlükəsizlik Şurasının özlərinin də qəbul etdiyi qətnamələr əsasında Azərbaycan torpaqlarının işğaldan azad edilməsinə nail olmaq əvəzinə münaqişənin dondurulması siyasətini yürüdürdülər. Onların əsas məqsədi münaqişəni dondurulmuş vəziyyətdə saxlamaq və bundan həm Azərbaycana, həm də müəyyən dərəcədə Ermənistana təsir vasitəsi kimi istifadə etmək idi. Onlar tam sinxron şəkildə fəaliyyət göstərirdi və ATƏT-in Minsk qrupunun bütün fəaliyyəti münaqişənin həllinə deyil, işğalın sonsuz olmasına xidmət edirdi".

Forum iştirakçılarının suallarını cavablandırarkən dövlətimizin başçısı əvvəllər də səsləndirdiyi fikirləri bir daha diqqətə çatdırdı: "...ABŞ, Fransa və Rusiyanın rəhbərlik etdiyi bu Minsk qrupu yalnız Qarabağı, yəni təkcə Qarabağı deyil, keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin inzibati sərhədlərini deyil, həm də Laçın və Kəlbəcər rayonlarının bütün ərazisini əlimizdən alıb Ermənistana vermək istəyirdi ki, biz buna razı olaq. Bunun müqabilində bizə olduğumuz yerdən şərqə doğru beş rayonun qaytarılması vəd edilirdi. Amma nə mən, nə də Azərbaycanda heç kim buna razı olmazdı. Lakin bu, üç aparıcı ölkənin konsolidasiya olunmuş mövqeyi idi, ən azından onların Təhlükəsizlik Şurasının daimi üzvləri, mən bu termindən istifadə edirəm - dünyanın aparıcı dövlətləri olduqlarını nəzərə alsaq, bu mövqeyə müqavimət göstərmək olduqca çətin idi".

İkinci Qarabağ müharibəsi başlayanda Azərbaycanın qarşısında mürəkkəb siyasi və diplomatik vəziyyət yaranmışdı. Prezident İlham Əliyev həmin dövrün reallıqlarını belə ifadə etmişdir: "İkinci Qarabağ müharibəsi başlayanda onların hamısı dərhal dayanmağı tələb edirdi. Bəziləri çox, digərləri az bezdirici şəkildə qorxudur, təhdid edir, zəng edirdilər. Amma hamısı istəyirdi ki, biz dayanaq, hər şeyi olduğu kimi saxlayaq. Bir məqamda bəziləri təklif edirdi: "Yaxşı, Füzuli azad edilib, amma dayanın". Müxtəlif diplomatik mexanizmlərdən istifadə etməli olduq. Bəli, Azərbaycan öz haqlı mövqeyindən geri çəkilmədi. Zəfərlə başa çatan İkinci Qarabağ müharibəsi Cənubi Qafqazda tamamilə yeni siyasi reallıq yaratdı. İlk növbədə BMT Təhlükəsizlik Şurasının qətnamələrində əks olunan əsas prinsiplər təmin edildi. Baxmayaraq ki, dövlətimizin başçısının da qeyd etdiyi kimi, müəyyən qüvvələrin məqsədi Azərbaycanın öz ərazi bütövlüyünü bərpa etməsinə imkan verməmək idi. Amma artıq gec idi.

Vətən müharibəsindən sonra da sülhün təşəbbüsçüsü Azərbaycan oldu. Həm də bu səbəbdən ATƏT-in Minsk qrupunun əvvəlki formatda fəaliyyət göstərməsi üçün obyektiv əsaslar aradan qalxdı. Yeni siyasi vəziyyət isə yeni yanaşmalar və yeni mexanizmlər tələb edirdi. ATƏT-in Minsk prosesinə və onunla əlaqəli strukturların fəaliyyətinə xitam verilməsi də məhz yaranmış yeni reallıqların beynəlxalq səviyyədə qəbulunun nəticəsi oldu.

2025-ci il avqustun 9-da Azərbaycan Prezidenti və Ermənistanın Baş naziri arasında Vaşinqtonda keçirilmiş görüşə dair Birgə Bəyannamədə qeyd olundu: "Biz, həmçinin Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının (ATƏT) Minsk prosesi və onunla əlaqəli strukturlarının bağlanmasına dair Azərbaycan Respublikasının xarici işlər naziri və Ermənistan Respublikasının xarici işlər naziri tərəfindən ATƏT-ə birgə müraciətin imzalanmasına şahidlik etdik. Biz ATƏT-in bütün iştirakçı dövlətlərini bu qərarı qəbul etməyə çağırırıq".

Ötən il sentyabrın 1-də ATƏT Nazirlər Şurası tərəfindən ATƏT-in Minsk prosesi və əlaqəli strukturlarının fəaliyyətinə xitam verilməsi barədə qərar qəbul edildi. Qərara əsasən, Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin birgə müraciətinə uyğun olaraq, ATƏT-in Minsk prosesinin, ATƏT-in fəaliyyətdə olan sədrinin Minsk konfransının məşğul olduğu münaqişə üzrə şəxsi nümayəndəsinin və Yüksəksəviyyəli Planlaşdırma Qrupunun fəaliyyətinə son qoyuldu. Sözügedən strukturların bağlanmasına dair təşkilati və texniki məsələlərin yekunlaşdırılması ATƏT Katibliyinə tapşırıldı.

ATƏT-in Minsk qrupunun fəaliyyətinə xitam verilməsi yalnız bir strukturun bağlanması kimi qiymətləndirilə bilməz. Bu həm də beynəlxalq münasibətlərdə dəyişən reallıqların, regionda yaranmış yeni siyasi mənzərənin və sülh prosesində yeni mərhələnin göstəricisidir.

Tarixi təcrübə göstərir ki, münaqişələrin həlli yalnız real nəticəyə yönəlmiş siyasi iradə, beynəlxalq hüquqa hörmət və ədalətli yanaşma əsasında mümkündür. Azərbaycan nümunəsi göstərdi ki, uzun müddət həll olunmamış problemlər dəyişən siyasi və hüquqi reallıqlar fonunda öz həllini tapa bilər.

*Zöhrə FƏRƏCOVA, "Azərbaycan"*

# Türk birliyi: tarixi yaddaşdan yeni geosiyasi gücə doğru

**Dünya yeni geosiyasi reallıqların formalaşdığı, güc və təsir mərkəzlərinin yenidən müəyyənləşdiyi mürəkkəb bir tarixi mərhələ yaşayır. XXI əsrin yeni reallığında artıq yalnız ərazi və hərbi güc deyil, coğrafiyanı iqtisadi üstünlüyə, tarixi bağlılığı strateji həmrəyliyə, mədəni yaxınlığı intellektual gücə çevirə bilən dövlətlər və birliklər gələcəyin siyasi xəritəsinə təsir etmək imkanına malik olurlar.**

Məhz belə bir tarixi məqamda türk dünyasının qarşısında açılan imkan adi regional əməkdaşlıq çərçivəsinə sığmır. Söhbət bir-birindən minlərlə kilometr məsafədə yerləşən ayrı-ayrı dövlətlərin, sadəcə, iqtisadi əlaqələr qurmasından getmir, eyni zamanda Asiyanın dərinliklərindən Xəzərə, Cənubi Qafqazdan Anadoluya və oradan Avropaya uzanan nəhəng geosiyasi məkanın ortaq potensialının hərəkətə gətirilməsindən gedir. Bu məkanın daxilində enerji ehtiyatları, nəhəng bazarlar, tranzit yolları, strateji limanlar, təbii sərvətlər, insan kapitalı, ən başlıcası, əsrlərin sınağından keçmiş ortaq tarixi-mədəni bağlar mövcuddur. Bu gün türk dünyasını artıq "bir-birimizlə hansı sahələrdə əməkdaşlıq edəcəyik" sualından çox daha böyük və strateji məsələ düşündürür: ortaq tarixdən və mədəni yaxınlıqdan doğan mənəvi bağlılığı iqtisadi, elmi, texnoloji və geosiyasi gücə çevirə biləcəyikmi?

Qarabağın işğaldan azad edilməsi ilə Azərbaycan yalnız tarixinin ağır bir səhifəsini geridə qoymadı, türk dünyasının qarşısında yeni əməkdaşlıq imkanlarının qapısını da açdı. Dünənə kimi həmrəyliyini siyasi bəyanatlarla nümayiş etdirən türk dövlətləri bu gün Qarabağın və Şərqi Zəngəzurun yenidən qurulmasında məktəblər, mədəniyyət ocaqları və sosial layihələrlə iştirak edərək isbatlayırlar. Şuşanın türk dünyasının mədəniyyət paytaxtına çevrilməsi isə bu yeni mərhələnin həm rəmzi, həm də mənəvi ifadəsidir.

Beləliklə, türk dünyasının inteqrasiyası artıq gələcəyin uzaq perspektivi yox, gözlərimiz önündə baş verən prosesə çevrilib. Bir tərəfdə Bakıdan keçərək Mərkəzi Asiyanı Anadolu və Avropa ilə birləşdirən nəqliyyat və enerji xətləri, digər tərəfdə Şuşadan Daşkəndə, Astanadan Bişkekə, Ankaradan Bakıya uzanan mədəni, elmi və humanitar bağlar dayanır. Elə bu səbəbdən türk dünyasının qarşısında duran yeni mərhələni yalnız iqtisadi əməkdaşlıq anlayışı ilə izah etmək doğru olmaz. İqtisadiyyat bu inteqrasiyanın maddi dayağıdırsa, nəqliyyat onun damarları, elm və təhsil intellektual gücü, mədəniyyət isə onu bir arada saxlayan mənəvi təməldir. Bu o deməkdir ki, artıq türk dünyası öz tarixi yaddaşını müasir geosiyasi imkanlarla birləşdirərək Avrasiyanın yeni düzənində özünəməxsus güc mərkəzinə çevrilmək yoluna çıxıb.

Bu prosesin mərkəzində isə Azərbaycan xüsusi yer tutur. Ölkəmizin 2020-ci ildə qazandığı Zəfər, 2023-cü ildə Qarabağda suverenliyini tam bərpa etməsi türk dünyasının inteqrasiya prosesinə yeni siyasi və mənəvi dinamika verdi. Qarabağ məsələsi Azərbaycan üçün ərazi bütövlüyünün bərpası olduğu qədər, türk dünyası üçün də ortaq yaddaşın, həmrəyliyin və siyasi iradənin sınağı idi. 2024-cü ilin iyulunda Şuşada Türk Dövlətləri Təşkilatının dövlət başçılarının ilk qeyri-rəsmi Zirvə görüşünün keçirilməsi təsadüfi deyildi. Azərbaycanın təşəbbüsü ilə keçirilən bu görüş Şuşanı türk dünyasının siyasi dialoqu üçün yeni simvolik mərkəzə çevirdi.

Ümumiyyətlə, türk dünyasının bugünkü inteqrasiya prosesini Azərbaycanın rolu olmadan təsəvvür etmək mümkün deyil. Bu baxımdan Prezident İlham Əliyevin fəaliyyətini yalnız Azərbaycan-Türkiyə münasibətləri və ya ikitərəfli əlaqələr çərçivəsində qiymətləndirmək doğru olmazdı. Daha geniş aspektdən baxdıqda Prezident İlham Əliyevin türk dünyasının siyasi, iqtisadi və strateji yaxınlaşmasının əsas memarlarından biri kimi çıxış etdiyini görürük. Bu, sadəcə, siyasi ritorika deyil, son illərin ardıcıl hadisələrindən çıxarılan analitik nəticədir.

Sözsüz ki, türk dünyasının inteqrasiyasının ən real tərəfi iqtisadi əməkdaşlıqdır. Türk Dövlətləri Təşkilatının iqtisadi əməkdaşlıq mexanizmləri artıq ticarət, investisiya, sahibkarlıq, gömrük, nəqliyyat və maliyyə sahələrini əhatə edir. Türk İnvestisiya Fondunun yaradılması bu baxımdan xüsusi əhəmiyyət daşıyır. Fondun ilkin kapitalının 500 milyon dollar müəyyən edilməsi, qarşılıqlı investisiyaların artırılması, kiçik və orta sahibkarlığın inkişafı və innovasiyaların dəstəklənməsi istiqamətində fəaliyyəti yeni imkanlar yaradır. Kapitalın, texnologiyanın, istehsal zəncirlərinin və sahibkarlıq imkanlarının türk dövlətləri arasında daha sərbəst hərəkəti, əslində, yeni bir dövrün başlanğıcıdır. Bu proses dərinləşərsə, türk dünyası ayrı-ayrı milli bazarların cəmi olmaqdan çıxaraq bir-birini tamamlayan iqtisadi məkana çevrilə bilər.

Türk dünyasının gələcəyini müəyyən edən mühüm layihələrdən biri isə Orta dəhlizdir. Çin - Mərkəzi Asiya - Xəzər-Azərbaycan-Gürcüstan-Türkiyə xətti üzərində formalaşan Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu yükdaşıma xətti olmaqla yanaşı, həm də Şərqlə Qərb arasında yeni iqtisadi və geosiyasi bağlantının əsas sütunlarından birinə çevrilmək potensialına malikdir. Bu yerdə Azərbaycanın müstəsna əhəmiyyətə malik coğrafi mövqeyini qeyd etməmək mümkün deyil. Azərbaycan Xəzərlə Qafqazı, Mərkəzi Asiya ilə Türkiyəni, daha geniş mənada isə Çin və Mərkəzi Asiyanı Avropa ilə birləşdirən mühüm qovşaqdır. Bakı-Tbilisi-Qars dəmir yolu, Ələt limanı, enerji xətləri və Xəzər üzərindən nəqliyyat əlaqələri Azərbaycanın türk dünyasının iqtisadi inteqrasiyasında coğrafi və strateji mərkəz olduğunu göstərir.

Aydın məsələdir ki, iqtisadi maraq dövlətləri yaxınlaşdıra bilər. Ancaq dövlətləri uzunmüddətli perspektivdə bir-birinə bağlayan əsas amillər ortaq dil, tarix, ədəbiyyat, musiqi, folklor, mənəvi dəyərlər və tarixi yaddaşdır. Bu baxımdan Qarabağda və Şərqi Zəngəzurda dağıdılmış şəhərlərin, kəndlərin, məktəblərin və mədəni irsin bərpası ölkəmizin milli məsələsi olmaqla yanaşı, türk dünyasının həmrəyliyinin də yeni formasına çevrilib. Özbəkistanın Füzulidə Mirzə Uluqbəy adına məktəb inşa etməsi, Qazaxıstanın Füzulidə Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzi yaratması, Qırğızıstanın Ağdam rayonunun Xıdırlı kəndində Ayqöl Manas adına məktəbin tikintisində iştirakı bu həmrəyliyin konkret nümunələridir. Beləliklə, Qarabağda binalar tikilmir, türk dünyasının ortaq yaddaşının gələcəyə yönəlmiş yeni səhifəsi yazılır.

Türk dünyasının bütün dövlətləri eyni siyasi və iqtisadi modelə malik deyil. Onların xarici siyasət prioritetləri, iqtisadi imkanları və inteqrasiya sürətləri fərqlidir. İnteqrasiyanın gücü məhz bu fərqləri vahid məqsəd ətrafında uzlaşdırmaq bacarığından asılıdır. Türkiyə türk dünyasının Qərbə açılan ən böyük iqtisadi və geosiyasi qapısıdır. Azərbaycan Xəzər-Qafqaz-Türkiyə xəttində strateji körpüdür. Qazaxıstan Orta dəhlizin əsas dayaqlarındandır. Özbəkistan böyük əhali, sənaye, kənd təsərrüfatı və intellektual potensialı ilə türk dünyasının iqtisadi çəkisini artırır. Qırğızıstan Mərkəzi Asiyanın mühüm nəqliyyat və mədəni əlaqələr məkanını təmsil edir. Türkmənistan isə Xəzərin şərq sahilində enerji ehtiyatları və tranzit potensialı ilə bu sistemdə mühüm yer tutur. Bu müxtəliflik - bir-birini tamamlayan iqtisadi coğrafiya türk dünyasının ən böyük üstünlüklərindəndir.

Bu xəritəyə Tacikistan və Pakistanın daxil edilməsi isə türk dünyası sərhədlərinin genişləndirilməsi kimi deyil, daha böyük regional əməkdaşlıq sisteminin qurulması kimi başa düşülməlidir. Türk dövləti olmayan bu iki ölkə Mərkəzi və Cənubi Asiyanın geosiyasi və iqtisadi əlaqələri baxımından mühüm əhəmiyyət daşıyır. Burada əsas məsələ etnik mənsubiyyət deyil, coğrafi tamamlayıcılıqdır. Türk dünyasının Orta dəhliz vasitəsilə Çin və Avropanı birləşdirməsi, Mərkəzi Asiyanın Pakistan limanlarına və Cənubi Asiyaya çıxış imkanlarının genişlənməsi Avrasiyanın yeni nəqliyyat xəritəsini formalaşdıra bilər. Bu mənada türk dünyası özünü qapalı etnik blok kimi deyil, Avrasiyanın müxtəlif regionlarını bir-birinə bağlayan açıq əməkdaşlıq platforması kimi təqdim edə bilər.

Dünyada güc mərkəzlərinin yenidən formalaşdığı, geosiyasi rəqabətin sərtləşdiyi, enerji və nəqliyyat marşrutlarının strateji əhəmiyyətinin artdığı bir vaxtda türk dünyasının qarşısında tarixi imkan yaranıb. Bu, ilk növbədə Şərqlə Qərb arasında etibarlı nəqliyyat və logistika məkanı yaratmaq, enerji təhlükəsizliyində daha mühüm rol oynamaq, Mərkəzi Asiyanın dənizlərə çıxış imkanlarını genişləndirmək, ortaq investisiya və istehsal zəncirləri formalaşdırmaq, elm, təhsil və texnologiyada vahid əməkdaşlıq ekosistemi yaratmaq və Avrasiyada yeni siyasi dialoq və sabitlik platforması formalaşdırmaq deməkdir.

Türk Dünyası Vizyonu-2040 sənədində də üzv dövlətləri "Şərq-Qərb" və "Şimal-Cənub" ticarət yollarını birləşdirən dinamik regional iqtisadi qrupa çevirmək, Orta dəhlizdə nəqliyyat və gömrük maneələrini azaltmaq, rəqəmsal əlaqələri və yeni texnologiyalardan istifadəni genişləndirmək kimi hədəflər müəyyənləşdirilib. Deməli, söhbət, sadəcə, nostalji "ortaq keçmiş" ideyasından getmir, həm də gələcək qurmaqdan gedir.



Türk Dövlətləri Təşkilatı, TURKSOY, Türk Akademiyası, TürkPA, Türk Universitetlər Birliyi, Türk İnvestisiya Fondu və digər mexanizmlərin qarşısında duran əsas vəzifə onların bir-birindən ayrı fəaliyyət göstərməsi deyil, vahid strateji sistem kimi işləməsidir. Burada Azərbaycan modelinin əhəmiyyəti özünü daha aydın göstərir. Azərbaycan son illər Qərblə, Mərkəzi Asiya ilə, Türkiyə ilə və daha geniş Avrasiya məkanı ilə paralel əlaqələr quraraq müxtəlif istiqamətləri bir-birinə bağlayan diplomatik və iqtisadi körpü funksiyası yaradıb.

Türk dünyasının yeni mərhələsinin ən güclü simvollarından biri Qarabağdır. Çünki Qarabağda baş verənlər yalnız müharibədən sonrakı bərpa prosesi deyil. Burada azad edilmiş ərazilərin yenidən qurulması, "ağıllı şəhər"lər, "yaşıl enerji", yeni nəqliyyat xətləri, müasir məktəblər, mədəniyyət mərkəzləri və regional iqtisadi inteqrasiya bir-birini tamamlayan vahid modelə çevrilib.

Bu prosesin siyasi xəttinin formalaşmasında Prezident İlham Əliyevin rolu xüsusi olaraq seçilir. Dövlətimizin başçısının türk dünyasının birliyini yalnız emosional və tarixi bağlılıq kimi deyil, siyasi, iqtisadi və strateji gücə çevirmək istiqamətində göstərdiyi təşəbbüslər ölkəmizi bu inteqrasiya prosesinin aparıcı qüvvəsinə çevirib. Prezident İlham Əliyevi türk dünyasının müasir inteqrasiya prosesinin siyasi memarlarından biri adlandırmaq üçün kifayət qədər əsas var.

Qarşıda duran əsas vəzifə ortaq tarixdən ortaq gələcəyə keçməkdir. Əgər türk dünyası bu prosesi ardıcıl davam etdirə bilsə, qarşıdakı illərdə Avrasiyanın xəritəsində yeni geosiyasi reallıq formalaşacaq. Sözsüz ki, bu birlik qapalı və kiməsə qarşı yönəlmiş ittifaq deyil, Şərqlə Qərbi birləşdirən, Mərkəzi Asiyanı Qafqaz və Türkiyə üzərindən dünya iqtisadiyyatına bağlayan, elm və texnologiyada əməkdaşlığı genişləndirən, mədəni irsi müasir inkişafla birləşdirən yeni Avrasiya gücü olacaq.

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

---

*Azərbaycan-Ukrayna münasibətləri:*

# Strateji tərəfdaşlığın yeni vizyonu

**Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramovun Ukraynaya rəsmi səfəri iki ölkə arasında hüquq-müqavilə bazası əsasında formalaşmış əlaqələri irəliyə aparmaq məqsədi daşıyır. Çünki Azərbaycanın Ukrayna ilə dərin mədəni, iqtisadi və siyasi əlaqələri mövcuddur. Qeyd etməliyik ki, strateji tərəfdaşlıq vizyonu bir çox cəhətdən Azərbaycan-Ukrayna əlaqələrində mərkəzi yer tutur.**



## Azərbaycanın Ukrayna münaqişəsinin həlli ilə bağlı mövqeyi

Azərbaycan-Ukrayna strateji tərəfdaşlığı ikitərəfli əlaqələrlə məhdudlaşmayaraq, regional və beynəlxalq təhlükəsizlik məsələlərini də əhatə edir.

Ona görə də Ceyhun Bayramovun səfəri regiondakı münaqişənin davam etməsi fonunda Azərbaycanın böhranın həlli ilə bağlı strateji cəhətdən dəyərləndirilən yanaşmalarını ortaya qoyur.

Rəsmi Bakı Rusiya-Ukrayna münaqişəsinin davam etməsini regionun təhlükəsizliyi üçün problematik hesab edir. Azərbaycan dövləti geosiyasi düyünlərin açılması və mürəkkəb təhlükəsizlik problemlərinin həlli üçün səy göstərən tərəf kimi beynəlxalq tərəfdaşların diqqətindədir.

Bu mənada, XİN başçısının Ukraynaya səfəri ümumi kontekstdə Azərbaycanın münasibətləri inkişaf etdirmək təşəbbüsləri ilə regional problemlərin həllinə töhfə səylərini birləşdirir. Azərbaycan həm Ukrayna, həm də Rusiya ilə əlaqələrə önəm verir. Rəsmi Bakı hər iki tərəflə konstruktiv münasibətlərini qoruyaraq, münaqişənin yalnız siyasi-diplomatik vasitələrlə, BMT Nizamnaməsi, beynəlxalq hüququn norma və prinsipləri əsasında həllinin vacibliyini vurğulayır.

Bu, geosiyasi təhlükəsizlik mühitində balansın qorunmasını əhatə edən mühüm yanaşma olmaqla, beynəlxalq hüququn münaqişələrin yekunlaşması ilə bağlı yanaşmalarına da müsbət təsir göstərir.

## Azərbaycan-Ukrayna münasibətlərində yeni dinamika

Nazir Ceyhun Bayramov səfər çərçivəsində ukraynalı həmkarı Andrey Sibiqa ilə görüşüb və Prezident Volodimir Zelenski tərəfindən qəbul edilib. O, Ukrayna Prezidentinə Cənubi Qafqazda münaqişədən sonrakı reallıqlar, sülh gündəliyinin irəlilədilməsi istiqamətində göstərilən səylər, həmçinin Azərbaycanın işğaldan azad edilmiş ərazilərində həyata keçirilən genişmiqyaslı bərpa-quruculuq işləri barədə məlumat verib.

Görüşlərdə iki dövlətin strateji tərəfdaşlığının əhəmiyyəti və perspektivləri ilə bərabər, regional və beynəlxalq münasibətlər, o cümlədən Cənubi Qafqazda Azərbaycanın reallıq yaratmaq təcrübəsi ətrafında fikir mübadilələri aparılması diqqəti üç məqama yönəldir:

Müzakirələrin qayəsi strateji tərəfdaşlığın mövcud və gələcək vəziyyətinin keyfiyyətcə yeni mərhələ kimi xarakterizə olunması üzərində qurulub. Bu xüsusda Azərbaycanın Cənubi Qafqazdakı dominant geosiyasi mövqeyi onun Avropa regionunda strateji əhəmiyyətini artırır.

Azərbaycanın Avropanın enerji təhlükəsizliyindəki əhəmiyyətli rolu fonunda Ukraynaya qaz ixracı imkanlarının nəzərdən keçirilməsi maraq doğurur.

Azərbaycan regionda çoxvektorlu əməkdaşlığa maneə yaradan məhdudiyyətləri aradan qaldırmaq siyasətini strukturlaşdırır. Buraya Azərbaycanın Avro-Atlantik məkanın təhlükəsizlik arxitekturasındakı rolu, onun çoxşaxəli xarici siyasət strategiyası, o cümlədən Ukrayna ilə əlaqələri daxildir.

Ukrayna da öz növbəsində Azərbaycanın səylərini dəstəkləməklə Bakının prioritetlərini Avropanın təhlükəsizliyinə investisiya kimi qiymətləndirir.

Bütövlükdə Ceyhun Bayramovun Ukraynaya səfəri Bakının Kiyevlə münasibətlərdə genişləndirilmiş vizyonunu ortaya qoyur. Bu, perspektiv üçün qarşılıqlı dəstək mexanizmlərinin inteqrasiyasından tutmuş uzunmüddətli dövrdə daha dərinləşdirilmiş strateji əlaqələrin potensialını nümayiş etdirir.

---

*Ukraynalı ekspert:* 

# "Azərbaycan xarici siyasətinin əsas prioritetinin yalnız milli maraqların qorunması olduğunu nümayiş etdirir"

**"Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramovun Rusiya və Ukraynaya səfərləri rəsmi Bakının uzun illərdir ardıcıl şəkildə həyata keçirdiyi çoxşaxəli diplomatiyasının klassik nümunəsi hesab oluna bilər. Rusiya ilə Ukrayna arasında davam edən kəskin hərbi-siyasi böhran fonunda bu diplomatik fəallıq bir neçə mühüm siyasi və geostrateji məqamı özündə ehtiva edir".**

Bu fikirləri AZƏRTAC-a açıqlamasında **ukraynalı siyasi ekspert İvan US** deyib.

Ekspertin sözlərinə görə, Azərbaycan üçün Rusiya ilə Ukrayna arasında balansın qorunması yalnız bəyan edilən xarici siyasət prinsipi deyil, həm də coğrafi mövqeyi, iqtisadi maraqları və milli təhlükəsizlik amillərindən irəli gələn zərurətdir: "Rusiya Cənubi Qafqazın əsas siyasi aktorlarından biri olmaqla yanaşı, Azərbaycanın qonşusu və mühüm iqtisadi tərəfdaşıdır. Bu baxımdan, Moskva ilə konstruktiv işgüzar dialoqun qorunması Azərbaycanın postmünaqişə dövründə Qarabağ istiqamətində həyata keçirilən nizamlanma prosesi, sərhəd təhlükəsizliyinin təmin olunması və regional tranzit layihələrinin reallaşdırılması baxımından xüsusi əhəmiyyət kəsb edir. Ceyhun Bayramovun Rusiyaya səfəri Azərbaycanın rəsmi Moskva ilə proqnozlaşdırıla bilən münasibətləri davam etdirmək niyyətini nümayiş etdirir. Azərbaycan ilə Ukrayna arasında da ənənəvi dostluq münasibətləri mövcuddur, hər iki ölkə enerji və nəqliyyat təhlükəsizliyi ilə bağlı bir sıra məsələlərdə ortaq baxış nümayiş etdirir. Azərbaycanın indiyədək Ukraynaya humanitar yardım göstərməsi, eləcə də enerji sahəsində, o cümlədən elektrik enerjisi və avadanlıq tədarükü istiqamətində dəstək verməsi bunun bariz nümunəsidir".



İvan Usun sözlərinə görə, xarici işlər nazirinin Kiyevə səfəri Azərbaycanın dövlətlərin ərazi bütövlüyü prinsipinə sadiqliyini bir daha təsdiqləyir ki, bu da Azərbaycan üçün xüsusi siyasi və simvolik əhəmiyyət daşıyır. Eyni zamanda bu səfər Azərbaycanın müharibə şəraitində olan tərəfdaş ölkə ilə əlaqələri davam etdirmək niyyətini nümayiş etdirir: "Moskva və Kiyevə qısa zaman intervalında həyata keçirilən səfərlər Azərbaycanın münaqişənin hər iki tərəfi ilə dialoq kanallarını qoruyub saxlamaq istəyini açıq şəkildə göstərir. Bununla rəsmi Bakı üçüncü dövlətlər arasında mövcud qarşıdurmada hər hansı tərəfi seçmək niyyətində olmadığını, xarici siyasətinin əsas prioritetinin yalnız milli maraqların qorunması olduğunu nümayiş etdirir", - deyə o diqqətə çatdırıb.

Ukraynalı siyasi ekspert hesab edir ki, Azərbaycanın xarici işlər nazirinin Moskva və Kiyevə səfərləri Azərbaycanın müstəqil geosiyasi aktor statusunu bir daha təsdiqləyir: "Balanslaşdırılmış diplomatiya Bakının praqmatik tərəfdaş kimi beynəlxalq nüfuzunu daha da möhkəmləndirir və qlobal geosiyasi parçalanmalardan asılı olmayaraq, Azərbaycanla əməkdaşlığın mümkün olduğunu göstərir. Uzunmüddətli perspektivdə bu siyasət Cənubi Qafqazda sabitliyin qorunmasına xidmət edir və Azərbaycanın formalaşmaqda olan Avrasiya təhlükəsizlik və logistika arxitekturasının mühüm halqalarından birinə çevrilməsini təmin edir".

---

*Tatyana POLOSKOVA:* 

# "Azərbaycanın xarici siyasətinin əsasında milli maraqların qorunması dayanır"

**"Azərbaycan rəhbərliyinin beynəlxalq müstəvidə fəaliyyəti yüksək peşəkarlıqla səciyyələnir və ilk növbədə, dövlətin milli maraqlarının təmin olunmasına yönəlib".**

Bu fikri AZƏRTAC-a açıqlamasında **Rusiyanın birinci dərəcəli dövlət müşaviri Tatyana POLOSKOVA** deyib.

Onun sözlərinə görə, Azərbaycanın xarici siyasətində yalnız peşəkarlıq deyil, həm də ədalət və haqq prinsiplərinə sadiqlik ön plandadır: "Müasir dövrdə beynəlxalq münasibətlər sistemində xarici siyasətdə bu cür mənəvi-etik prinsiplərə riayət olunması nadir hallarda müşahidə olunsa da, Azərbaycanın nümunəsində bu yanaşma aydın şəkildə özünü göstərir. Xarici işlər naziri Ceyhun Bayramovun Moskvaya



səfəri və həmkarı Sergey Lavrovla keçirdiyi görüş zamanı postsovet məkanında sülhün təmin olunması, mövcud münaqişələrin tənzimlənməsi və Rusiya-Azərbaycan münasibətlərinin əvvəlki işgüzar formatda bərpası məsələləri müzakirə olunub. Qaz təchizatı üzrə əldə olunmuş razılaşmalar və Azərbaycanın Ukraynaya humanitar yardımının genişləndirilməsi də Bakının əvvəldən bəyan etdiyi prinsipial mövqeyə uyğundur. Çünki Azərbaycan hər zaman Ukraynanın ərazi bütövlüyünü dəstəklədiyini açıq şəkildə ifadə edib. Bu səfər Azərbaycanın müstəqil xarici siyasət kursunun, müxtəlif dövlətlərlə münasibətləri qarşılıqlı hörmət və bərabərhüquqlu əməkdaşlıq prinsipləri əsasında qurmaq bacarığının növbəti təsdiqidir".

Tatyana Poloskova bildirib ki, bütövlükdə, Ceyhun Bayramovun Kiyevə səfəri Azərbaycanın çoxvektorlu, balanslaşdırılmış və praqmatik xarici siyasət kursunun növbəti məntiqi təzahürü kimi qiymətləndirilməlidir. Bu siyasətin əsasında milli maraqların qorunması, bütün tərəfdaşlarla dialoqun davam etdirilməsi və beynəlxalq münasibətlərdə qarşılıqlı hörmət prinsipinin təmin olunması dayanır.

BEYNƏLXALQ HƏYAT

# Donald Tramp ABŞ-də "doğum turizmi"ni yenidən qadağan etmək istəyir

## Onun doğum üzrə vətəndaşlıq almaq hüququnu məhdudlaşdırmaqla bağlı əvvəlki cəhdi uğursuz olmuşdu

**ABŞ Prezidenti Donald Tramp iki xüsusi icra sərəncamı imzalayaraq doğum hüququ vətəndaşlığı hüququnu məhdudlaşdırmaq üçün ikinci cəhd edib. Təxminən bir ay öncə Ali Məhkəmə onun analoji ilk cəhdini Konstitusiyaya zidd hesab etmişdi.**



İkinci sərəncam əcnəbi hamilə qadınların doğum üçün ABŞ-yə səyahət etməsi və uşaqlarının bu doğumla ABŞ vətəndaşı olması praktikasını qadağan edir. Qeyd edək ki, ABŞ bir şəxsin ölkə daxilində doğumla vətəndaş ola biləcəyi azsaylı ölkələrdən biridir.

Tramp ABŞ-yə immiqrasiyanı məhdudlaşdırmaq üçün kampaniya vədlərini genişləndirən icra sərəncamlarını imzalayaraq deyib: "Bu, illər əvvəl baş verməli idi, amma biz indi bu məsələni həll edirik". ABŞ Prezidentinin milli təhlükəsizlik üzrə müşaviri Stiven Miller yeni məhdudiyyətin necə işlədiyini izah edib: "Bu sərəncam valideynləri vətəndaş olmayan, yaxud əgər onlardan ən azı biri terror təşkilatının üzvüdürsə, ABŞ vətəndaşlığını saxtakarlıqla almağa cəhd edirsə və ya ABŞ-də işləmələri başqa bir ölkənin missiyası ilə bağlıdırsa (bu, xüsusən də diplomatlara aiddir), ABŞ-də doğulan uşaqlara vətəndaşlıq verməyi qadağan edir. İkinci sərəncamda "doğum turizmi"nə qoyulan qadağa artıq dünyada heç kimin bu saxtakarlıq məqsədilə viza almasına icazə verilməməsi deməkdir".

Müşavirin dediyinə görə, bu insanlar ABŞ-yə turist pərdəsi altında gəlirlər. Lakin onların burada olmalarının əsl məqsədi uşaq sahibi olmaq, onlara vətəndaşlıq almaq və sonra ölkəmizi tərk etməkdir. Sonra bu uşaqlar sosial müavinətlərə, səsvermə hüququna və amerikalılar kimi bütün digər hüquq və imtiyazlara çıxış əldə edirlər. Miller bildirib ki, Prezidentin İmmiqrasiya və Vətəndaşlıq Qanununun bir hissəsinə əsasən "doğum turizmi"ni qadağan etmək səlahiyyəti var və bu maddə Prezidentə ölkəyə giriş üçün istisnalar və məhdudiyyətlər tətbiq etmək səlahiyyəti verir.

İcra sərəncamlarının imzalandığını açıqlayan D.Tramp iddia edir ki, "doğum turizmi" sayəsində ABŞ-də yüz minlərlə körpə dünyaya gəlib: "İndi adamlar bunun ətrafında biznes qururlar, varlı insanlar doğum hüququ vətəndaşlığı ətrafında biznes sahibi olurlar. Bu, baş verməməlidir".

Amma D.Trampın məlumatları ABŞ-də siyahıyaalma məlumatlarına əsaslanan Miqrasiya Siyasəti İnstitutunun hesablamaları ilə ziddiyyət təşkil edir. Bu hesablamalara görə, "doğum turizmi" nəticəsində ABŞ-də hər il 22 min ilə 26 min arasında körpə dünyaya gəlir. 2024-cü ildə hökumət məlumatları göstərir ki, ünvanı xaricdə olan analardan 9600 körpə dünyaya gəlib. Milli statistikaya görə, həmin il ABŞ-də ümumilikdə 3,6 milyon körpə dünyaya gəlib.

"Reuters" agentliyi qeyd edir ki, ABŞ-yə uşaq dünyaya gətirmək və vətəndaşlıq almaq üçün gələn əcnəbilərin sayı və ya bunun Amerika vergiödəyiciləri üçün xərcləri barədə rəsmi rəqəmlər yoxdur.

ABŞ-də doğum hüququ ilə vətəndaşlıq hüququ Konstitusiyanın 14-cü düzəlişində təmin edilir və bu düzəlişdə deyilir: "ABŞ-də doğulmuş və ya naturalizasiya olunmuş və onun yurisdiksiyasına tabe olan bütün şəxslər ABŞ-nin və yaşadıqları ştatın vətəndaşlarıdır". Bu düzəliş, Amerikada Vətəndaş müharibəsinin bitməsindən qısa müddət sonra - 1868-ci ildə təsdiq edilmiş və keçmiş kölələrin hüquqlarını təmin etmək, ayrı-ayrı ştatların onları məhdudlaşdırmasının qarşısını almaq məqsədi daşıyırdı.

D.Trampın yeni icra sərəncamına çox güman ki, bu dəfə də məhkəmədə etiraz ediləcək və 14-cü düzəlişə uyğunluğu araşdırılacaq. Kaliforniya Universitetinin Devis Hüquq Məktəbinin professoru Qabriel Çinin sözlərinə görə, icra sərəncamının bəzi müddəaları qüvvədə qala bilər, lakin digər aspektlər "ciddi Konstitusiya sualları doğurur". Alim təsdiqləyir ki, Prezidentin xüsusən də doğuş məqsədilə ABŞ-yə girişi məhdudlaşdırmaq üçün müəyyən səlahiyyəti var. "Amma bu baş verdikdən, yəni ABŞ-də uşaq doğulandan sonra Prezidentin həmin uşağın vətəndaş olmadığına qərar vermək səlahiyyəti olduğunu düşünmürəm", - deyə o bildirib. Professor ABŞ-dəki milyonlarla doğuşa nisbətən "doğum turizmi"ni "dənizdə damla" adlandırıb və qeyd edib ki, "bu, qeyri-adi bir haldır".

# Tailandda 14 yaşlı şagird 8 adamı qətlə yetirəndən sonra intihar edib

## O, evdə nənə-babasını, məktəbdə isə müəllimləri və şagirdləri öldürüb

**Tailandda məktəbdə baş verən atışmada azı 9 nəfər ölüb, 15 nəfər yaralanıb. Polis bildirib ki, 9-cu sinif şagirdi məktəbə hücuma başlamazdan əvvəl evdə nənə və babasını öldürüb.**



Son məlumata görə, ölənlərin sayı 9-dur: 14 yaşlı qatilin özü, nənə və babası, 3 müəllim və 3 şagird. Yaralılardan ikisinin vəziyyətinin ağır olduğu bildirilir. Şagirdlər və məktəb işçiləri təxliyə ediliblər. Faciə yerli vaxtla təxminən saat 10:00 radələrində (Bakı vaxtı ilə təxminən saat 07:00) Banqkok şəhərinin şimalındakı Nonthaburi əyalətinin Banq Kruai rayonunda baş verib. Əyalətin polis rəisi Decrapi Konqdi BBC-yə bildirib ki, hadisəni törədən azyaşlı qatil tapançadan istifadə edib. 9 mm-lik tapança öldürdüyü babasına məxsus olub.

Yerli gündəlik "Khaosod" qəzeti və internet nəşri yazır ki, hadisəni törədən yeniyetmə digər şagirdlər tərəfindən fiziki və psixoloji zorakılığa məruz qalırmış.

Tailandın Baş naziri Anuthin Chanvirakun məktəbdəki atışma qurbanlarının ailələrinə başsağlığı verib. "Bu, həqiqətən də dəhşətdir, bu baş verməməli idi. Ölkəmizdə belə bir faciə necə baş verə bilərdi?" - deyə o bildirib və əlavə edib ki, hökumətin vətəndaşlara odlu silah saxlamağa icazə verməməsinin səbəbi məhz budur.

Hadisənin baş verdiyi Thepsirin məktəbi XIX əsrin sonlarından bəri fəaliyyət göstərən və ölkə daxilində filialları olan oğlanlar üçün nüfuzlu liseydir. Diplomatlar, idmançılar və hətta bir neçə baş nazir bu məktəblərdə təhsil alıblar.

Tailandda sərt silah qanunları mövcuddur və qanunsuz odlu silah saxlama 10 ilə qədər həbslə cəzalandırılır. Bununla belə Tailand Cənub-Şərqi Asiyada mülki əhalidə ən çox silahın olduğu ölkələrdən biridir.

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*

# Avropa İttifaqı Rusiyaya yeni sanksiyalar tətbiq edib

**Avropa İttifaqı avqustun 7-də Rusiyanın Ukraynaya intensiv zərbələrinə cavab olaraq RF hərbi-sənaye kompleksini dəstəklədiyi iddia edilən beş şəxsə qarşı yeni sanksiyalar qəbul edib. AZƏRTAC xəbər verir ki, bu barədə Aİ Şurası bildirib.**

Aİ Şurası bildirib ki, siyahıya alınan beş şəxs müdafiə və hərbi texnologiya sektorlarında fəaliyyət göstərən Rusiya şirkətlərində, o cümlədən Ukraynadakı müharibədə RF silahlı qüvvələri tərəfindən istifadə edilən hərbi texnikanın hazırlanması, istehsalı və təchizatı ilə məşğul olan firmalarda yüksək vəzifələr tutur.

Qeyd olunub ki, sanksiyaya məruz qalanlar arasında Rusiyanın "İskəndər-M" ballistik raketində istifadə olunan sistemlər də daxil olmaqla dəqiq elektromexaniki komponentlərin istehsalı ilə məşğul olan "Serpuxov Metallist Zavodu" ASC-nin baş direktoru Ramil Badqutdinov da var.

Aİ həmçinin RS-28 "Sarmat" raket sistemi də daxil olmaqla ballistik raketlərin istehsalı ilə məşğul olan "Krasnoyarsk Maşınqayırma Zavodu" ASC-nin baş direktoru Aleksandr Dyukarevi də siyahıya salıb.

Şura bildirib ki, sanksiyaya məruz qalan digər şəxslər arasında hərbi rabitə sistemlərinin istehsalında, həmçinin pilotsuz uçuş aparatları və kosmosla əlaqəli hərbi texnologiyalar üçün proqram təminatının hazırlanmasında iştirak edən Rusiya şirkətlərinin rəhbərləri də var. Sanksiyalar rejimi altına düşən şəxslərin aktivləri dondurulur, onlara birbaşa və ya dolayı yolla vəsait və ya iqtisadi resursların verilməsi qadağandır. Bu şəxslər həmçinin Aİ-yə üzv ölkələrə giriş və ya tranzit imkanlarının qarşısını alan səyahət qadağasına məruz qalırlar.

"Ukraynaya edilən hər yeni hücum Avropanın Rusiyaya qarşı sərt tədbirlər görməsinin daha bir səbəbidir. Ordusu döyüş meydanında irəliləyə bilməyən Moskva mülki şəxslərə qarşı terror kampaniyasını daha da gücləndirir. Aİ müharibəyə son qoyulana qədər Rusiyaya təzyiqi artırmağa davam etməlidir", - deyə Aİ-nin xarici siyasət rəhbəri Kaya Kallas "X" sosial media platformasında bildirib.


OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

"AZƏRBAYCAN" qəzetinə abunə yazılışı davam edir!

Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:

| | |
|---|---|
| "Azərpoçt" MMC | (012) 598-49-55, (051) 225-02-13 |
| "Azərmətbuatyayımı" ASC | (012) 441-19-91, (050) 322-33-17 |
| "Qaya" firması | (012) 566-77-80, (050) 214-40-53 |
| "Region Press" MMC | (055) 316-79-01, (050) 316-79-01 |
| "Səma-M" MMC | (012) 594-09-59 |
| "Ziya" LTD | (012) 497-76-96, (050) 306-77-22 |
| "Pressinform" MMC | (012) 598-49-52, (070) 340-01-00 |
| "City press" MMC | (055) 819-09-26 |

1 illik -156 (yüz əlli altı) manat
6 aylıq - 78 (yetmiş səkkiz) manat
3 aylıq - 39 (otuz doqquz) manat
1 aylıq - 13 (on üç) manat




Hörmətli oxucular!

Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (Tel.: (012) 539-59-33) zəng vura bilərsiniz.



BİLDİRİŞ

"İpək Yolu Sığorta" ASC (VÖEN 9900002671) öz daimi fəaliyyət ünvanının dəyişdiyini elan edir.

*Cəmiyyətin yeni ünvanı:*

**Bakı şəhəri, AZ 1014, Rəsul Rza küçəsi 75, Winter Park Plaza, 8-ci mərtəbə, ofis 802.**


# Bilmək istəyirəm

**- Mənzildə ev heyvanlarını saxlamağa görə qonşular arasında yaranan mübahisələr qanunla necə həll edilir?**

**Yeganə XUDİYEVA,**
**Bakı şəhəri**

- Sualınıza cavab olaraq bildiririk ki, çoxmənzilli binalarda ev heyvanlarının (it, pişik və s.) saxlanılması və bununla bağlı qonşular arasında yaranan mübahisələr bir neçə normativ hüquqi aktla (mənzil, inzibati və sanitariya-gigiyena qanunvericiliyi) tənzimlənir.

Nəzərə alınmalıdır ki, mənzildə ev heyvanı saxlamaq vətəndaşın hüququdur. Lakin bu hüquq digər sakinlərin rahatlıq, təhlükəsizlik və sağlamlıq hüquqlarını pozmamalıdır.

Mənzil Məcəlləsinin 15-ci maddəsinə görə, yaşayış sahəsindən istifadə edilərkən qonşuların hüquq və qanuni mənafelərinə, yanğın təhlükəsizliyi, sanitariya-gigiyena, ekoloji və qanunvericiliyin digər tələblərinə riayət olunmalıdır.

Mülki Məcəllənin 170.2-ci maddəsinə əsasən, qonşu torpaq sahələrinin və ya digər daşınmaz əmlakın mülkiyyətçiləri qanunda nəzərdə tutulmuş hüquq və vəzifələrindən əlavə, bir-birinə qarşılıqlı hörmət bəsləməlidirlər. Öz mülkiyyət hüququnu həyata keçirən hər kəs qonşunun mülkiyyətinə cürbəcür hədsiz təsirlərdən çəkinməlidir. Xüsusən işlənmiş qazların, tozun, ağır qoxuların, səs-küyün və ya titrəyişlərin bütün ziyanlı və torpaq sahələrinin mövqeyinə və xarakteristikasına görə qanunsuz təsirləri qadağandır.

Nazirlər Kabinetinin 9 mart 2011-ci il tarixli 38 nömrəli qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının yaşayış məntəqələrində it, pişik və ya digər ev heyvanlarının saxlanması" Qaydaları isə ev heyvanlarının saxlanma şərtlərini, onların saxlanılmasına nəzarəti, heyvan sahibinin hüquq və vəzifələrini və digər qaydaları müəyyən edir. Həmin qaydalara əsasən:

- baytarlıq, sanitaiya-gigiyena, səs-küy və digər normaları pozmamaqla, şəhərdə və şəhərtipli qəsəbələrdə çoxmərtəbəli binaların ayrıca mənzillərində yaşayan hər bir ailəyə qonşulara narahatlıq yaratmamaq şərtilə bir it və iki pişik saxlamağa icazə verilir.
- baytarlıq və dövlət sanitariya nəzarəti orqanlarının rəsmi razılığı əsasında "canlı təbiət" guşələrində, uşaqlar üçün sosial xidmət müəssisələrində, yay və qış idman-sağlamlıq ocaqlarında, sanatoriya-kurort müəssisələrində (istirahət evlərində, pansionatlarda və s.) ev heyvanlarını saxlamaq olar.
- şəhərdə və şəhərtipli qəsəbələrdə lazımi qaydada çəpərlənmiş və təcrid olunmuş ərazilərdə itlərin sərbəst gəzintisi təşkil edilə bilər.
- təşkilatlarda, idarələrdə, müəssisələrdə gözətçi itlər yalnız xüsusi yerlərdə saxlanmalıdır.
- iri cins itlərin (senbernar, ovçarka, doq, boksyor, endelteryer, doberman-pinçer və s.) və digər heyvanların sahibləri mənzillərin, təşkilatların qapılarına it, yaxud vəhşi heyvan şəkilləri və "Təhlükəlidir" sözü yazılmış lövhələr vurmağa borcludurlar.

Təcrübə göstərir ki, əksər hallarda ev şəraitində saxlanılan ev heyvanlarına görə qonşular arasında müəyyən əsaslı mübahisələr yaranır. Bu mübahisələr daha çox ev heyvanlarının saxlanılması qaydalarının pozulması nəticəsində baş verir.

Unutmaq olmaz ki, ev heyvanlarının saxlanılması qaydalarının pozulması İnzibati Xətalar Məcəlləsinin 290-cı maddəsi ilə nəzərdə tutulmuş inzibati xəta tərkibini yaradır. Qəbul olunmuş qaydalara riayət olunmamasına, o cümlədən müəyyən edilmiş saydan artıq heyvan saxlanılmasına, heyvanın cilovsuz və ya buruntaqsız gəzdirilməsinə, yaxud heyvana lazımi qayğının göstərilməməsinə görə 200 manat məbləğində cərimə tətbiq edilir.

Pozuntu nəticəsində zərərçəkmiş şəxsin sağlamlığına yüngül bədən xəsarətinin yetirilməsinə və ya zərərçəkmiş şəxsə maddi zərər vurulmasına görə təqsirkar şəxs 800 manatdan 1000 manatadək məbləğdə cərimə olunur (İnzibati Xətalar Məcəlləsinin 290.3-cü maddəsi).

Çalışın qonşu ilə aranızda yaranmış mübahisəni qonşuluq münasibətləri xatirinə danışıqlar yolu ilə həll edin. Əgər şifahi xəbərdarlıq, yaxud ikitərəfli danışıq nəticə verməzsə, o zaman mübahisənin həlli prosesini rəsmi müstəviyə keçirmək lazımdır. Bunun üçün məhkəmə və ya inzibati orqanlara müraciət etməzdən əvvəl əlinizdə güclü sübutlar olmalıdır. Məsələn, qonşunun ev heyvanı ilə bağlı video və fotoşəkillərini çəkin (ev heyvanının səsi aydın eşidilməli, yaxud hər hansı bir hərəkəti aydın görünməlidir).

Sübutlar kifayətedici qədər toplandıqdan sonra ilkin olaraq inzibati orqana - sahə müvəkkilinə müraciət edə bilərsiniz. Bu halda qonşunun hərəkətləri ev heyvanlarının saxlanılması qaydalarının, ictimai davranış və ya sanitariya qaydalarının pozulması kimi qiymətləndirilə bilər. Sahə müvəkkilinə rəsmi ərizə ilə müraciət edərək profilaktik söhbət aparılmasını və qanun pozuntusunun aktlaşdırılmasını tələb edin. Polisin tərtib edəcəyi hər hansı rəsmi sənəd (izahat, akt və s.) gələcəkdə məhkəmə üçün çox mühüm sübut olacaq. İnzibati orqana müraciətlə birlikdə, yaxud ondan sonra məhkəməyə müraciət etməyiniz tövsiyə olunur. Beləliklə, iddiaçı olaraq cavabdehə (qonşuya) qarşı "qanunsuz hərəkətlərə son qoyulması (müdaxilənin aradan qaldırılması)" tələbinə dair məhkəməyə iddia ərizəsi ilə müraciət edə bilərsiniz. Əsas tələblə yanaşı, əgər sizə müəyyən maddi ziyan dəyibsə - maddi ziyanın ödənilməsini, həmçinin qorxu, psixoloji gərginlik və rahatlığın pozulmasına görə mənəvi ziyanın kompensasiyasını da tələb etmək hüququnuz vardır.

**Sualı cavablandırdı:**
**Paşa SƏFƏROV,**
**Azərbaycan Respublikası Vəkillər Kollegiyasının üzvü**

## ALLAH RƏHMƏT ELƏSİN!

Bəxtiyar Sadıqov Məhəmməd və Müşfiq Hüseynovlara əzizləri

**XAVƏR XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Ağstafa Rayon İcra Hakimiyyətinin başçısı Seymur Orucov Xalq şairi

**NƏRİMAN HƏSƏNZADƏNİN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 538-35-55 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32 | | |

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti 23L "Azərbaycan Nəşriyyatı" MMC 4-cü mərtəbə

az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 3277
Sifariş 981

Qiyməti 60 qəpik